

"Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam"
*Heydər Əliyev*

## Elmi Şuranın iclası keçirilib
səh. 2

## Yeni laboratoriyalar
səh. 4




Özünü fəth etməyi bacar!

# Bakı Universiteti

1929-cu ildən çıxır
**Təsisçi:** Bakı Dövlət Universiteti

№ 11 (1434) 31 oktyabr 2012-ci il


## POÇT QUTUSU
səh. 2

## Nazir 4 ali məktəbin rektoruna təşəkkür elan edib
səh. 2

## Kanadanın Vaterlo Universitetinin nümayəndə heyəti BDU-da
səh. 2

## Türkmənistan prezidenti gənc alimə mükafat təqdim edib
səh. 3

## İtaliya universitetləri ilə əməkdaşlıq
səh. 3

## "Bunu oxumaq sənə çox lazımdır..."
səh. 6

## GÖYƏRƏN TOXUMLAR
səh. 5

## Jurnalist gülüşü
səh. 6

## Dünyaya mən niyə gəldim?
səh. 6

## THİK növbəti tədbiri
səh. 8

# Prezident İlham Əliyev: "Müstəqil Azərbaycan böyük işlərə qadirdir"



*Bakı Dövlət Universitetində Dövlət Müstəqilliyinin 21-ci ildönümü münasibətilə tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan rektor, akademik Abel Məhərrəmov deyib ki, Azərbaycan xalqı əsrlər boyu azadlığa qovuşmaq, müstəqil dövlət qurmaq uğrunda daim mübarizə aparıb, yalnız ötən əsrin sonlarında yenidən bu arzusuna çatıb.*
səh. 2

## Prezident təqaüdçüləri
səh. 7

## "Dostlarım mənə əli deyirlər"
səh. 7

## Məmməd Səid Ordubadi – 140
səh. 6

## BDU beynəlxalq reytinq cədvəlində 51 pillə irəlilədi


səh. 8

## Yeni nəşrlər
səh. 8

## Hər evdə bir bayraq olsun!


səh. 8

## Nazir 4 ali məktəbin rektoruna təşəkkür elan edib

Təhsil Naziri Misir Mərdanov bir neçə dövlət ali məktəb rektorlarına təşəkkürünü bildirən əmr imzalayıb. Bu əmr bir neçə gün öncə Bakı şəhərində keçirilən II Bakı Beynəlxalq Humanitar Forum çərçivəsində tədbirlərin təşkilinə görə imzalanıb.

Bildirilir ki, Bakı Dövlət Universitetinin rektoru, AMEA-nın həqiqi üzvü Abel Məhərrəmov, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, iqtisad elmləri doktoru, professor Şəmsəddin Hacıyev, Bakı Slavyan Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Kamal Abdulla, Azərbaycan Dillər Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Jalə Qəribova yaxından iştirak ediblər. Onlar Foruma dəvət olunan bir çox xarici qonaqları, o cümlədən xarici ölkələrin keçmiş prezidentləri, Nobel mükafatı laureatları ilə öz universitetlərində görüşlər keçiriblər, onlara fəxri adlar və Azərbaycanı təcəssüm etdirən qiymətli hədiyyələr veriblər. Misir Mərdanov adları çəkilən ali məktəb rəhbərlərinin II Bakı Beynəlxalq Humanitar Forumun yüksək səviyyədə keçirilməsində aktiv fəaliyyətlərini nəzərə alaraq Təhsil Nazirliyinin təşəkkürü elan edilməsi barədə əmr imzalayıb.

## POÇT QUTUSU

### Bakı Dövlət Universitetinin rektoru, millət vəkili, akademik Abel Məhərrəmova

***Hörmətli cənab Məhərrəmov!***

İcazə verin sizi "Elm və texnologiya sahəsində 2012-ci ilin İSESCO mükafatı"na layiq görülməyiniz münasibətilə təbrik edim.

Əminəm ki, Sizin yüksək peşəkarlığınız və çox gözəl insani keyfiyyətləriniz sosial-iqtisadi xarakterli elmi-texniki problemlərin həll olunmasına, müstəqil Azərbaycanın nüfuzunun beynəlxalq arenada artmasına imkan yaradacaqdır.

Fürsətdən istifadə edərək, Belqrad və Bakı Dövlət Universitetləri arasında imzalanmış əməkdaşlıq haqqında memorandumun hər iki ölkənin elm sahəsində əlaqələrinin daha da möhkəmlənməsinə təkan verəcəyinə əminliyimi ifadə etmək istərdim.

Tam səmimiyyətimlə Sizi təbrik edir, bütün yaradıcılıq planlarınızın həyata keçməsini və yüksək nailiyyətlər qazanmağınızı arzulayıram. Sizə cansağlığı, səadət və həyatınızda uğurlar diləyirəm.

***Zoran Vayoviç,***
***Serbiyanın Azərbaycandakı səfiri***

* * *

***Hörmətli Abel müəllim!***

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kollektivi adından Sizi İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının "Elm və texnologiya sahəsində 2012-ci ilin İSESCO mükafatı"na layiq görülməyiniz münasibəti ilə təbrik edir, səmərəli fəaliyyətinizdə yeni nailiyyətlər arzu edirik. Siz bu mükafatı qazanan ilk azərbaycanlı alimsiniz. Heç şübhəsiz ki, bu əlamətdar hadisə həm də rəhbərlik etdiyiniz Bakı Dövlət Universitetininin tarixinə əbədi həkk olunacaqdır.

İnanırıq ki, bu gün respublikamızı siyasi, iqtisadi və sosial tərəqqi yolu ilə daha irəliyə aparan, elmimizin, təhsilimizin inkişafına xüsusi qayğı göstərən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında bundan sonra da Siz nüfuzlu və müdrik şəxsiyyət, Şərqin ilk dünyəvi təhsil ocağı olan Bakı Dövlət Universitetinin rektoru kimi böyük uğurlar əldə edəcək, Azərbaycanın davamlı inkişaf strategiyasının həyata keçirilməsi, dövlətçiliyimizin möhkəmləndirilməsi, yüksək ixtisaslı milli kadrların yetişdirilməsi işinə öz layiqli töhfənizi verəcəksiniz.

***Urxan Ələkbərov,***
***Rektor, akademik***

* * *

***Hörmətli Abel müəllim!***

Sizin "Elm və texnologiya sahəsində 2012-ci ilin İSESCO mükafatı"na layiq olaraq layiq görülməyiniz bizi hədsiz sevindirdi. Bu sizin uzun illər gərgin zəhmətinizin bəhrəsi olmaqla yanaşı, Azərbaycan elminin beynəlxalq miqyasda da qələbəsi hesab olunmalıdır. Sizə möhkəm cansağlığı, Azərbaycan təhsilinin flaqmanı olan möhtəşəm və əziz Bakı DövlətUniversitetinə rəhbərlikdə, Azərbaycanda təhsilin, elmin və mədəniyyətin inkişafına fədakar əməkdə, həmişə olduğu kimi yüksək zirvələrdə durmağı və daha böyük uğurlar qazanmağı arzu edirəm.

***Asəf İsgəndərov,***
***Rektor, professor***

# BDU-da Dövlət Müstəqilliyinin 21-ci ildönümü qeyd edilib





***Bakı Dövlət Universitetində Dövlət Müstəqilliyinin 21-ci ildönümü münasibətilə tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan rektor, akademik Abel Məhərrəmov*** deyib ki, Azərbaycan xalqı əsrlər boyu azadlığa qovuşmaq, müstəqil dövlət qurmaq uğrunda daim mübarizə aparıb, yalnız ötən əsrin sonlarında yenidən bu arzusuna çatıb. Ümummilli lider Heydər Əliyev müdrik lider kimi xalqı tarixən can atdığı müstəqillik idealına qovuşdurub, mütərəqqi tarixi ənənə əsasında yeni dövlətçilik konsepsiyasını irəli sürüb. "Biz xoşbəxt xalqıq ki, ümummilli liderimiz var. Xalq o vaxt daha da xoşbəxtdir ki, ümummilli liderin siyasi kursu ölkədə uğurla davam edir", - deyən rektor Azərbaycanın qonşu ölkələrə nisbətən xeyli çətin iqtisadi və siyasi problemlərlə müstəqilliyə qovuşmasından, Azərbaycanın regionun aparıcı dövlətinə çevrilməsindən, müstəqil və inkişaf edən dövlət kimi dünyanın diqqət mərkəzində olmasından, təhsil, elm, idman və mədəniyyətdə qazanılan uğurlardan danışıb, bütün bu nailiyyətlərdə prezident İlham Əliyevin xidmətlərini xüsusi qeyd edib.

***Sonra çıxış üçün söz Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənova verilib.*** O, bildirib ki, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq ondan da çətindir: "1993-1995-ci illərdə dövlətçiliyə qarşı bir neçə dəfə qəsd edildi. Amma Heydər Əliyev siyasi təcrübəsindən istifadə edərək bu və sonrakı qəsdlərin qarşısını aldı". Ə.Həsənov qeyd edib ki, yenidən belə qəsd planlarının olmayacağına arxayınlaşmaq olmaz: "Azərbaycan çox inkişaf edib, dünyada tanınıb, dövlətlər arasında öz layiqli yerini tutub. Bu çox güclü qısqanclığın yaranmasına səbəb olub. Bu normaldır, amma qəsd cəhdlərinin yaranmasına səbəb ola bilər".

*Millət vəkili, tarix elmləri doktoru, professor Musa Qasımlı və jurnalistika fakültəsinin dekanı, filologiya elmləri doktoru, professor Şamil Vəliyevin də çıxışları maraqla qarşılanıb.*

# Elmi Şuranın iclası keçirilib



Bakı Dövlət Universitetinin Böyük Elmi Şurasının genişləndirilmiş iclası keçirilib. İclası açan rektor, akademik Abel Məhərrəmov gündəliyi elan edib. Yay məktəbinin təşkili və attestasiya nəticələrinin yekunu haqqında tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor, professor İradə Əliyeva geniş məruzə ilə çıxış edib. Müzakirə edilən ikinci məsələ, universitetdə və Quba tədris-təcrübə bazasında görülən təmir-tikinti işləri haqqında olub. Məruzəni iqtisadi və təsərrüfat işləri üzrə prorektor Nəbi Ramazanlı edib. Daha sonra Sosial elmlər və psixologiya fakültəsinin dekanı, professor Hikmət Əlizadənin və Mexanika-riyaziyyat fakültəsinin dekanı, professor Nizaməddin İsgəndərovun hesabatları dinlənilib. Elmi şurada universitetin bəzi işçilərinə elmi adlar verilib və digər cari məsələlər müzakirə olunub.

## İDEA Kampaniyası təqdimat mərasimi keçirib

Oktyabrın 23-də Gənclər arasında ətraf mühitin mühafizəsi ilə bağlı layihələr həyata keçirən İDEA (Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq) Kampaniyası bu gün Bakı Dövlət Universitetində təqdimat mərasimi keçirib. Tədbirdə Ekologiya və torpaqşünaslıq fakültəsinin tələbələri iştirak edib. Tədbiri fakültənin dekanı, kimya elmləri namizədi, dosent Nazim Şamilov açıb, sonra sözü IDEA-nın insan resursları üzrə mütəxəssisi Fidan Quliyevaya verib. F.Quliyevanın sözlərinə görə, IDEA-nın əsas məqsədi planetimizin qorunması və ekoloji problemlər haqqında gənclərə məlumat verilməsidir. IDEA bu işə tələbələri cəlb etmək üçün ölkənin ali təhsil müəssisələrində təqdimatlar keçirir.

Qeyd edək ki, IDEA Kampaniyasına 12 iyul 2011-ci il tarixində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tərəfindən başlanılıb.

## Kanadanın Vaterlo Universitetinin nümayəndə heyəti BDU-da

Oktyabrın 17-də Kanadanın Vaterlo Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin rəhbəri Andre Jardin və Yüksək texnologiyalar fakültəsinin dekan müavini İlham Axundov BDU da olmuşlar. Görüşdə elm və innovasiyalar üzrə prorektor prof.Aydın Kazımzadə, Beynəlxalq əlaqələr və əməkdaşlıq üzrə prorektor dos.Şəlalə Məmmədova, Tətbiqi riyaziyyat və kibernetika, Mexanika riyaziyyat fakültələrinin dekanları iştirak etmişlər. Görüşdə gələcəkdə imzalanması nəzərdə tutulan ikitərəfli tələbə mübadiləsi müqaviləsinin şərtləri müzakirə olunmuşdur. Gələn ildən riyaziyyat və digər təbii elmlər üzrə I kursu müvəffəqiyyətlə bitirmiş, ingilis dilini yaxşı səviyyədə bilən tələbələrin arasından imtahanla seçilən şəxslər həmin Universitetə göndərilməsi və 3 il orada oxumaları nəzərdə tutulmuşdur.

Qonaqlar Tətbiqi riyaziyyat və kibernetika, Mexanika riyaziyyat fakültələrinin birinci kurs ingilis bölməsinin tələbələri ilə də görüşmüşlər.

Səhifəni təqdim etdi: **Mətbuat və İnformasiya şöbəsi**

# Akademik Həsən Əliyev və Azərbaycan təbiəti

Azərbaycanın görkəmli təbiətşünas alimi, akademik Həsən Əlirza oğlu Əliyevin torpaqşünaslıq və ekologiya elminin inkişafında böyük xidmətləri olmuşdur. O, ətraf mühitin bir çox sahələrinin öyrənilməsində və qorunmasında səylə çalışaraq, ömrünün sonuna qədər elmi tədqiqatlar aparmış, yüzlərlə elmi əsərlərin müəllifi və xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradıcısıdır.




Onlarla torpaqşünas, meşəçi, meliorator, bioloq, coğrafiyaşünas, aqronom və digər ixtisaslı mütəxəssislərin yetişdirilməsində böyük əməyi olan dahi alim öz şəxsi nümunəsi ilə hamıya örnək olmuşdur. Təbiəti öz həyatından artıq sevən mütəfəkkir ziyalının elmi əsərləri ilə tanış olan, özü ilə təmasda olan bütün insanlar təbiətə daha yaxın olmuş və ətraf mühit sahəsində əzmlə çalışmışlar.

***Həsən Əliyev AMEA Coğrafiya İnstitutuna rəhbərlik etdiyi illərdə torpaq-ekoloji tədqiqatlara və meşəçilik elminin inkişafına böyük diqqət yetirmişdir.***

Alim Azərbaycan Elmi Tədqiqat və Meşə Təsərrüfatı və Aqromeşəmeliorasiya İnstitutunun 1950-ci ildə yaranmasında, Azərbaycan EA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun yaradılması və təşkilidə, elmi kadrların hazırlanmasında böyüş işlər görmüşdür.

1949-1952-ci illərdə Azərbaycan EA Botanika İnstitutuna rəhbərlik etdiyi zaman meşəçilik laboratoriyasının yaradılmasına, Mərkəzi Nəbatat bağının, Dendroloji bağın inkişaf etdirilməsinə nail olmuşdur.

Həsən Əliyev bütövlükdə dağlıq və düzən ərazilərin ekocoğrafi problemlərinin kifayət qədər öyrənilməsinə nail olmuşdur. Bu baxımdan onun "Böyük Qafqazın şimal-şərq hissəsinin meşə və meşəqır torpaqları" adlı monoqrafiyası bu gün də torpaqşünasların və meşəçi mütəxəssislərin istifadə etdiyi mənbədir.

***1952-57-ci illərdə Həsən Əliyev Elmlər Akademiyasının akademik katibi vəzifəsində işləyən zaman meşə torpaqlarının öyrənilməsini ən vacib tədqiqat işi hesab edərək zəngin bir meşə torpaqşünaslığı laboratoriyası yaratmışdır.*** Həmin laboratoriyada Böyük Qafqazın torpaqlarının genetik-coğrafi cəhətləri öyrənilmişdir. 1959-cu ildə Mərdəkan qəsəbəsindən Bərdə şəhərinə köçürülən Azərbaycan Elmi Tədqiqat Meşə Təsərrüfatı və Aqromeşəmeliorasiya İnstitutunun müasir tələblərə cavab verən laboratoriyalarının, həmin əraziyə uyğun dendrologiya bağının yaradılması üçün 150 hektarlıq ərazinin müəyyənləşdirilməsinə nail olmuş və lazımi elmi məsləhətlər vermişdir.

Həsən Əliyev hələ 1980-ci illərdən başlayaraq Azərbaycan Təbiəti Mühafizə Cəmiyyəti və Bilik Cəmiyyəti ilə birlikdə keçirdiyi elmi seminarlarda təbiətsevərlərin, ekoloqların qarşısında həmişə olduğu kimi, elmi-praktiki əhəmiyyət kəsb edən mühazirələrlə çıxış edirdi.

***Həsən Əliyev ictimaiyyət qarşısındakı mühazirələrində meşələr və onlardan istifadə mədəniyyətindən də geniş söhbət açırdı.*** O, meşələrin necə gəldi qırılmasını, həmin sahəyə yersiz texnika ilə hücum çəkilməsini videokameralarla lentə alır, çəkdiyi epizodlar ətrafında müzakirələr aparırdı. Təbiətə dəyən ziyanları lentə aldıqca, meşələrdə qanunsuz mal-qara otaranları və özbaşına qırıntıya yol verənləri gördükcə vəziyyətin getdikcə gərginləşdiyini hiss edən görkəmli akademik "Həyəcan təbili" kitabını qələmə almışdır.

Həsən Əliyev Tuqay meşələrinin seyrəlməsi və onun yarımsəhralara çevrilməsinin qarşısını almaq məqsədilə elmi təhlillər aparırdı. Bu məqsədlə yüksək ixtisaslı mütəxəssislərlə ərazilərə baxış aparmaqla fikirlərini öyrənirdi. Xüsusilə Tuqay meşələrinin genofonduna daxil olmayan, torpaq və iqlim şəraitinə uyğunlaşmayan ağac və kol cinslərindən ibarət bərpaya etiraz edirdi. O, Tuqay meşələrinin yerində alma, armud, nar bağlarının salınmasına etirazını bildirərək, həmin ərazilərdə uzunsaplaq palıdın, qovşağın, saqqızın, qarağacın və b. ağac və kol cinslərinin torpaq və iqlim şəraitinə uyğun olanlarını məsləhət bilirdi. Əkinlərə baxış zamanı bildirirdi ki, Kür boyu Eldar şamı əkilməsi təqdirəlayiqdir. Lakin onun yanğın təhlükəsi daha böyük olduğu üçün, müxtəlif cinslərlə qarışıq əkilməsi məsləhətdir. Saqqız toxumunun həmin ərazidən daha sağlam ağaclardan yığılaraq Bərdə dendralogiya bağında səpilməsini tövsiyə etmişdir. Püstənin əcdadı olmaqla eyni fəsilədən olan saqqız ağacına püstə ağacının calanması təklifini vermişdir. Tinglikdə aparılan calaq işlərindən məlum olmuşdur ki, (1984-1985-ci illər) qismən (10-15%) nəticə alınsa da (T şəkilli calaq aparılmaqla) saqqız ağacı həqiqətən də püstənin ən qədim əcdadıdır.

***Qeyd etmək lazımdır ki, akademik təbiəti mühafizə və təbiəti bərpa sahəsindəki tədqiqatları və tövsiyələri bu gün də fəaliyyətimiz üçün önəmlidir.*** O,1970-ci illərdən başlayaraq Bakı və Sumqayıt şəhərlərinin ətrafında yaşıllaşdırma işlərinə bilavasitə köməklik göstərməklə mütəmadi müşahidə edərək Ceyranbatan su anbarının da ətrafında mədəni meşə əkinlərinin həyata keçirilməsini vacib bilirdi. Həmin ərazidə Respublikamıza digər ölkələrdən gətirilən torpaq və iqlim şəraitinə uyğun ağac və kol cinslərindən biomüxtəlifliyini nəzərə almaqla mədəni meşə salınmasını təklif edirdi. Suyun çirklənmədən, torpağın erroziyadan qorunması başlıca məqsəd olmaqla, təklif edirdi ki, həmin ərazidə torpaqların qismən codluğu nəzərə alınmaqla cinslərin seçilməsinə diqqət verilsin. O, həmin ərazidə fitonsidlər buraxan dekorativ və estetik gözəlliyə malik sərvin müxtəlif növlərindən, Eldar şamından, şabalıdyarpaq palıddan, göyrüşdən, ağcaqayından, şeytan ağacından və b. cinslərlə bərabər müəyyən ərazilərdə qismən saqqız ağacının da toxumlarının səpilməsini təklif etmişdi.

Respublikamızın yalnız 11,8% ərazisi meşəqondu hesab olunsa da, seyrəkliklər meşələrin məhsuldarlığını aşağı salır. Dağ meşələrinin müxtəlif ekocoğrafi problemləri, düzən meşələrinin isə təbii şəraitin dəyişməsi ilə ələqədar azalması təbiətdə «həyəcan təbili»nin çalınması kimi zamanın hökmünü elan etdi.

***"Həyəcan təbili" görkəmli təbiətşünas akademik Həsən Əliyevin qələmə aldığı ən qiymətli əsərlərindəndir.*** Azərbaycanın zəngin bitki örtüyü və iqlimini kənd təsərrüfatının müxtəlif sahələri üçün əlverişli sayan təbiətşünas alim 20-ci əsri yuxudan oyadan "Həyəcan təbili" kitabında təbiətimizin keçmişini xatırlamaqla, bu günün qlobal problemlərinin həlli yollarını həyəcanla qələmə almışdır.

O, təbiətin dərdinə əlac etməyin qanunla, elmi və təsərrüfatın müvafiq üsulları ilə həllini aydınlaşdırmış, əsrlər boyu insanların sulara, torpaqlara, meşələrə laqeydliyinin törətdiyi və törədəcəyi bəlaları aydınlıqla açıqlamışdır. Məhz ona görə də təbiətin qanunla qornumasını və elmi mühafizəsini təşkil etmək üçün, o, bəşəriyyəti köməyə çağırırdı:

***Baltanı dağda cökəyə vurdu!***
***Aranda qocaman palıd qırıldı!***

Odur ki, təbiətşünas alim, akademik Həsən Əlirza oğlu Əliyevin XX əsrin insanlarını yuxudan oyadan "Həyəcan təbili" kitabı ən qlobal problemlərin vaxtında araşdırılmasından bəhs edir.

O, Abşeron yarımadasının yaşıllaşdırılması da həll edilməsi vacib olan ekoloji problemlərdən hesab edirdi.

***Həsən Əliyev təbiətin dərdinə əlac etməyi, qanunla qorumağı elmi əsaslarla öyrənməyi və təsərrüfatların ekoloji baxımdan idarə olunmasını vaxtında açıqlamışdı.*** Dahi alim ekoloji təhsil və tərbiyəni yüksək qiymətləndirmişdi. Qiymətli meşə sahələrinin təbiət abidələri kimi sənədləşdirilməsi işlərinə rəhbərlik edərək 1982-ci ilin mart ayında dövlət səviyyəsində pasportlaşdırılaraq ciddi mühafizəyə verilməsini təşkil etmişdi.

Azərbaycanın təbiətinin, xüsusilə meşələrin qorunması, mühafizəsi və bərpası onun qarşıya qoyduğu əsas vəzifələrdən biri idi. 1970-ci illərdə Qarabağ düzənliyində Ağdam və Bərdə rayonlarının ərazisində Soltanbud meşəsində dünyada nəsli kəsilməkdə olan püstənin əcdadı saqqız ağacının təbii bərpa prosesini müşahidə edirdi. Uzun illər həmin meşə sahəsində hətta qaratikan kolları ilə hasar çəkdirir, təbii şəraitin tam formalaşaraq bərpasını ölçmələr aparmaqla müəyyənləşdirirdi. O, saqqız ağacının Respublikanın müxtəlif zonalarında xüsusilə arid və düzən zonlarında qorunması və artırılması üçün son dərəcə maraqlı elmi işlər həyata keçirirdi.

Bakı və Sumqayıt şəhərlərinin ətrafında yaşıllıqların yaradılmasının xalq təsərrüfatı üçün böyük əhəmiyyət kəsb etməsini nəzərə alaraq, həmin şəhərlərin ətrafında yaşıllıq qurşağı salınması üçün tədbirlər hazırlayıb həyata keçirmişdir.

O dövrdə akademikin təşəbbüsü ilə Bakı şəhərinin Şıxov çimərliyi zonasında, Patamdar qəsəbəsi, digər şəhərətrafı sahələrlə yanaşı, Ceyranbatan gölünün, Bakı və Sumqayıt şəhərlərinin ətrafında meşə fondu torpaqlarında qarışıq cinslərdən ibarət mədəni meşələrin salınması nəzərdə tutulmuşdu.

***1970-ci illərdən başlayaraq bu günə qədər bu ərazilərdə müxtəlif ağac və kol cinslərindən ibarət meşə salınması həyata keçirilir.*** Hazırda həmin meşəliklərin müxtəlif ağac və kol cinslərinin yetişdirilməsi üçün meşə tinglikləri fəaliyyət göstərir. Burada xeyli işlər görülmüş və davam etməkdədir. Xüsusilə 30 il bundan əvvəl əkilmiş iynəyarpaqlı və enliyarpaqlı meşə cinsləri artıq burada torpaq və iqlim şəraitini qəbul edərək məhsul verməyə başlamışdır. Bunlardan ən çox elmi maraq doğuranı saqqız ağacının və Eldar şamının həmin yerdə gedən təbii bərpa prosesidir.

***Akademik Həsən Əliyev "Yaşıl sərvətin keşiyində" kitabında davamlı inkişaf və təbii sərvətlərin davamlı istifadəsi prinsiplərini məharətlə qələmə almışdı:*** "İnsanlar təbiətdə gördükləri nemətləri yalnız özləri üçün mənimsəyərsə, gələcək nəsil o nemətlərdən məhrum ola bilər. Bunun üçün nəvə və nəticələrimiz bizə "sağ ol" deməzlər. Əksinə insanlar onları əhatə edən ana təbiətə daha məsuliyyətlə, övladlıq qayğıları ilə yanaşarlarsa, o daha da zənginləşər və onun meyvəsindən daha çox bar dərmək olar".

***Şövqi Göyçaylı***
***Coğrafiya elmləri doktoru, professor***

***Allahverdi Dolxanov***
***Coğrafiya elmləri namizədi, dosent***

# Türkmənistan prezidenti BDU aliminə mükafat təqdim edib



*Türkmənistan prezidenti Qurbanqulu Berdimuhamedov Bakı Dövlət Universitetinin müəllimi, kimya elmləri namizədi Flora Hacıyevaya "Debütların birliyi" mükafatını təqdim edib.* Mükafatın təqdimatı Aşqabadda keçirilən MDB ölkələrinin yaradıcı və elmi ziyalılarının VII Forumu çərçivəsində baş tutub.

Forum Müstəqil Dövlətlər Birliyinin, MDB-nin İcraiyyə Komitəsinin, MDB Parlament Assambleyasının, ictimai, elmi və yaradıcı təşkilatlarının və Türkmənistanda akkreditə olunmuş diplomatik korpusunun nümayəndələri iştirak etmişlər. Forumun məqsədi - təhsil, elm, ədəbiyyat, incəsənət və mədəniyyətin digər sahələrində MDB ölkələrinin inkişafını müzakirə etməkdir.

"Debütların birliyi" mükafatı MDB-nin Humanitar Əməkdaşlıq Şurası və MDB Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu tərəfindən təsis edilib.

# İtaliya universitetləri ilə əməkdaşlıq məsələləri müzakirə olunub

Kataniya Universitetinin prorektoru, professor Dario Pettinato və professoru Antonio D'Agata, Roma Tre Universitetinin professoru Marko Giuzeppe Valigi, La Sapienza Universitetinin professoru Allessandro Saggioro BDU-da oldular. *Qonaqlar BDU-nun beynəlxalq əlaqələr və əməkdaşlıq üzrə prorektoru, dosent Şəlalə Məmmədova ilə görüşüblər.* Görüş zamanı tədris və tədqiqatlar sahəsində əməkdaşlıq sahələri müzakirə olunub, birgə layihələrin və elmi əməkdaşlığın inkişafı üçün universitetlər arası əməkdaşlıq proqramları nəzərdən keçirilib. Daha sonra italyalı qonaqlar universitetlə tanış olub, elmi-tədqiqat laboratoriyalarına, Tarix və Beynəlxalq əlaqələr fakültəsinə baş çəkiblər.

# YENİ LABORATORİYALAR

***Ali təhsil ocaqlarının flaqmanı olan Bakı Dövlət Universiteti hər il olduğu kimi, bu tədris ilinə də bir sıra yeniliklərlə başlayıb. Bu il universitetin fizika, kimya, biologiya, coğrafiya, ekologiya, jurnalistika, o cümlədən digər fakültələrin elmi-tədqiqat, tədris laboratoriyaları yeni avadanlıqlarla təmin olunub, bir sıra laboratoriyalar yenidən qurulub, meteoroloji müşahidə məntəqəsi yaradılıb, yataqxana kompleksinin layihələndirmə işləri artıq başa çatdırılıb. Bu tədris ilindən həmçinin universitetin Quba rayonunda Tədris-Təcrübə Bazası istifadəyə hazırdır. 8 hektar ərazini əhatə edən Tədris-Təcrübə bazası 5 mərtəbəlidir və 400-ə yaxın universitet əməkdaşı və tələbə üçün nəzərdə tutulub. Yataqxana kompleksnin layihələndirmə işləri başa çatdırılıb. Müasir - otel tipli yataqxanaların inşası nəzərdə tutulur.***



### *EKOLOGİYA FAKÜLTƏSİ, BİOEKOLOGİYA LABORATORİYASI*

Müasir zamanda, qlobal inkişafın mənfi cəhətlərindən biri ətraf mühitin çirklənməyə məruz qalmasıdır. Xüsusilə neft tullantıları ilə çirklənmiş torpaqlarda yaşayan canlı orqanizmlərə belə vəziyyət pis təsir göstərir. Belə ki, Respublikamızda bioekologiya sahəsində gənc mütəxəssislərin yetişdirilməsinə ehtiyac var. Cari ilin (2012) mart ayında Bakı Dövlət Universitetinin Ekologiya və Torpaqşünaslıq fakültəsinin Bioekologiya kafedrasının nəzdində olan Bioekologiya laboratoriyası yaradılmışdır. Laboratoriyanın əsas elmi istiqaməti bioloji obyektlərin bir-biri ilə əlaqəsinin və ətraf mühitin onlara olan təsirinin daha dərindən öyrənilməsidir. Bununla yanaşı laboratoriyada işləyərkən tələbələrə "bioekologiya" anlayışını daha dərindən qavramağa imkan yaranır, onlar bioekologiyanın müxtəlif metodları ilə yaxından tanış olurlar: çöl təcrübələrinə ilkin hazırlıqların aparılma qaydaları haqqında, ekoloji ekspertizanın mahiyyəti və aparılma qaydaları barədə məlumat əldə edilir. Eksperimental tədqiqatın, laborator analizlərin aparılma yolları araşdırılır, həmçinin orada olan müxtəlif cihazlarla düzgün davranmaq imkanı əldə edirlər.

### *FİZİKA FAKÜLTƏSİ, NANOARAŞDIRMALAR LABORATORİYASI*

BDU alimlərinin nanotədqiqatlar sahəsində apardığı uğurlu tətbiqi xarakterli araşdırmalar dünyanın bu istiqamətdə tədqiqat aparan aparıcı mərkəzlərində çalışan alimlər tərəfindən yüksək qiymətləndirilir və beynəlxalq maliyyə mərkəzləri alimlərimizin işlərinə böyük məbləğdə qrant layihələri ayırırlar. Alimlərin nanotədqiqatlar sahəsində apardığı tədqiqat işləri dünyanı indeksləyən Tomson Reyter agentliyinin siyahısına düşən yüksək impact factora malik jurnallarında dərc edilir. Son 5 ildə bu istiqamətdə aparılan tədqiqat işlərinin nəticələri 65-dən artıq nüfuzlu jurnalda məqalələr şəklində dərc edilmişdir. Yalnız 2011-ci ildə nanotədqiqatlar sahəsində aparılan elmi araşdırmalara beynəlxalq fondlar tərəfindən ayrılan qrant layihələrinin ümumi miqdarı 2000000,0 ABŞ dolları miqdarında olmuşdur. BDU-da bu istiqamətdə aparılan işlərin miqyasını və səviyyəsini daha da artırmaq məqsədi ilə ən müasir cihazlarla təchiz edilmiş yeni nanoaraşdırmalar laboratoriyası açılmışdır. Laboratoriya çox yüksək ayırd etmə qabiliyyətinə malik atom qüvvə və tunel mikrosku, Furye spektrometri, spektroflüorimetr, spektofotometr, böyük ayırd etmə qabiliyyətinə malik müasir optik mikroskop, qamma spektrometri və sair qiymətli cihazlarla təchiz edilmişdir. Yeni tədris ilində Yaponiyanın Tokyo Boeki Technology MMC ilə bağlanmşı müqavilə əsasında ümumi dəyəri 1200000,0$ və CEOL şirkətinin istehsalı olan və son dərəcə böyük texniki imkanlara və ayırd etmə qabiliyyətinə malik CSM-7600Fskanedici elektron mikroskopu və polikristallarda struktur analizləri aparmaq üçün rentgen difraktometri alınmışdır. Bu cihaz nanostrukturların təhlili və araşdırılması üçün ideal vasitədir. Bu cihazlar ilə müxtəlif birləşmələrin nanohissəciklərini tədqiq etmək və onların miqdari analizini yerinə yetirmək, fiziki, kimyəvi və bioloji obyektləri araşdırmaq mümkündür. Mikroskop 1000000,0 dəfə böyütmək imkanına malikdir. CSM-7600F - skanedici elektron mikroskopları arasında CEOL şirkətinin elektron optika sisteminin ən son nailliyyətlərini özündə birləşdirən ən yeni model mikroskoplardan biri hesab olunur. Diametri kiçik olan zond və optimal şəraitlər nanometr tərtibində olan nümunələrin element analizini aparmağa imkan verir. "Gentle Beam" sistemi keçirici olmayan nümunələrdə yüklənmənin azalmasını və sürətləndirici gərginliyin kiçik qiymətlərində yüksək ayırdetmə imkanını təmin edir.

2012-ci tədris ilində BDU-nun Fizika fakültəsinin maddi-texniki bazasını gücləndirmək məqsədi ilə ümumi dəyəri 240000,0$ olan tədris laboratoriya avadanlıqları alınmışdır. Laboratoriya avadanlıqları Fiziki elektronika, Ümumi fizika, Yarımkeçiricilər fizikası, Optika və molekulyar fizika kafedralarının nəzdindəki tədris laboratoriyalarının ən müasir səviyyədə qurulmasına xidmət edəcəkdir. Fakültədə virtual laboratoriya işlərinin hazırlanması üçün interakriv lövhələr quraşdırılmışdır. Yalnız yarımkeçiricilər fizikası kafedrasının tədris laboratoriyasına alınmış qurğularda tədris proqramına uyğun olaraq yarımkeçiricilər fizikası, yarımkeçirici cihazlar və mikroelektronikanın əsasları fənnləri üzrə 29 laboratoriya işi yerinə yetirmək olar. Eyni zamanda bu qurğular vasitəsi ilə magistr və doktorantlar da elmi-tədqiqat işləri apara bilərlər.

### *COĞRAFİYA FAKÜLTƏSİ, METEOROLOJİ MÜŞAHİDƏ MƏNTƏQƏSİ*

Bakı Dövlət Universitetinin ərazisində universitet rəhbərliyi və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamentinin birgə səyləri nəticəsində meteoroloji müşahidə məntəqəsi yaradılıb. Məntəqədə hava elementləri üzərində müşahidələr yerinə yetirmək üçün müxtəlif cihazlar- yağıntı ölçən, flyuger, termometrlər və s. quraşdırılıb. 2012-ci ilin sentyabr ayında meteoroloci müşahidə məntəqəsində müasir tələblərə cavab verən Avtomatik Meteoroloji Stansiya quraşdırılıb. Bu stansiyanı ABŞ-ın Corciya Universiteti NATO ilə əməkdaşlıq çərçivəsində Bakı Dövlət Universitetinə hədiyyə edib. Məntəqədə universitet alimləri və tələbələri tərəfindən mütəmadi olaraq müşahidələr aparılır və müşahidələrin nəticələri Milli Hidrometeorologiya Departamentinə ötürülür. "Universitet"meteoroloci müşahidə məntəqəsində Bakı Dövlət Universitetinin Coğrafiya fakültəsində təhsil alan tələbələr təcrübə keçir və nəzəri biliklərini möhkəmləndirirlər.

### *BİOLOGİYA FAKÜLTƏSİ, ZEİSS LABORATORİYASI*

Bu otaqda genetika, sitologiya, histologiya və fərdi inkişafın biologiyası fənnləri üzrə laboratoriya dərsləri tədris edilir. Burada həmçinin həmin fənlərə aid müxtəlif istiqamətdə elmi tədqiqat işləri aparılır. Qeyd edilən fənlər üzrə laboratoriya dərslərini və elmi tədqiqat işlərini mikroskop olmadan aparmaq mümkün deyil. Yeni alınmış bu mikroskoplar Almaniyanın Karl Zeiss firması tərəfindən hədiyyə verilmişdir. Genetika, sitologiya, histologiya və fərdi inkişafın biologiyası fənnləri üzrə aparılan laboratoriya dərslərində canlı orqanizmləri təşkil edən hüceyrə, toxuma və orqanların mikroskopik quruluşu öyrənilir, eyni zamanda quruluşla funksiya arasındakı münasibətlər də müəyyən edilir. Bundan ötrü müxtəlif üsullarla xüsusi preparatlar hazırlanır. Genetika fənni üzrə keçirilən laboratoriya dərslərində irsiyyət və dəyişkənliklə əlaqədar olan hadisələr öyrənilir. Məsələn, xromosomların formaları, daxili quruluşu, müxtəlif amillərin təsiri nəticəsində xromosomlarda baş verən dəyişikliklər öyrənilir.Sitologiyaya aid keçirilən laboratoriya dərslərində hüceyrələrin forması, onun quruluş əsasını təşkil edən ümumi və xüsusi orqanoidlər endoplazmatik şəbəkə, ribosom, lizosom, Holci-kompleksi, hüceyrə mərkəzi, hərəkət orqanoidləri və s., hüceyrənin müxtəlif bölünmə üsulları amitoz, mitoz və meyoz və hüceyrədaxili törəmələr (zülallar, yağlar, karbohidratlar və s.) öyrənilir.Histologiya dərslərində canlı orqanizmi təşkil edən toxumaların - epitel, birləşdirici, əzələ və sinir toxumalarının mikroskopik quruluşu, habelə onların mənşəyi, topoqrafik və funksional xüsusiyyətləri öyrənilir.Fərdi inkişafın laboratoriyası fənni üzrə tədris olunan laboratoriya dərslərində cinsi hüceyrələrin əmələ gəlməsi prosesi, onların mikroskopik quruluşu, mayalanma hadisəsinin müxtəlif mərhələləri, mayalanmış yumurtanın müxtəlif bölünmə tipləri, rüşeymin formalaşması, rüşeymxarici və rüşeymə xas olan orqanların mikroskopik quruluşu öyrənilir.

### *JURNALİSTİKA FAKÜLTƏSİ, İNTERNET TELEVİZİYA OTAĞI*

Ötən ildən başlayaraq "Ali təhsil müəssisələrində Yeni medianın tədrisinin təkmilləşdirilməsi" layihəsinin icrasına başlanılıb. Layihə Multimedia Mərkəzi tərəfindən Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsi ilə sıx əməkdaşlıq şəraitində keçirilir. Layihə çərçivəsində yeni media sahəsi ilə əlaqəli fənlərin tədris modellərinin hazırlanması, jurnalistika təhsili verən hər bir ali təhsil müəssisəsi üçün Onlayn laboratoriya - onlayn qəzetin modulunun və Yeni media texnologiyalarının tədris edən müəllimlərə köməklik məqsədilə elektron tədris resursun yaradılması, təlimlərin keçirilməsi nəzərdə tutulur. Həmçinin Layihə çərçivəsində yalnız bir ali təhsil müəssisəsində - BDU-nun Jurnalistika fakültəsində İnternet TV Studiyanın yaradılması planlaşdırılmışdır. Bu studiya onlayn resursların media bazarının tələblərinə cavab verən kadrlar hazırlanmasında önəmli rol oynayacaq.

### *HÜQUQ FAKÜLTƏSİ, TƏDRİS-KONFRANS ZALI*

Əsaslı təmir olunaraq müasir avadanlıqla təmin olunan 185 nəfərlik zal auditoriya və konfrans üçün nəzərdə tutulub.











# İNSANLARI MƏNƏVİ SAFLIĞA ÇAĞIRAN GÖRKƏMLİ ALİM VƏ MÜƏLLİM



***Cari ilin noyabr ayında Bakı Dövlət Universitetində Azərbaycanın görkəmli şərqşünas və islamşünas alimi, ensiklopedik bilik sahibi, əməkdar elm xadimi, filoloji elmlər doktoru, akademik Vasim Məmmədəliyevin anadan olmasının 70 illik yubileyinin təntənəli şəkildə qeyd edilməsi nəzərdə tutulmuşdur.*** Mən həmişə düşünürəm ki, hər bir xalqın böyüklüyü təkcə onun bəşəriyyətə bəxş etdiyi görkəmli şəxsiyyətlərə görə yox, həm də onların qədr-qiymətini bilməsi ilə müəyyən edilir. Sevinirəm ki, Azərbaycanda da öz həyatını xalqın və millətin inkişafına həsr edən, bu məqsədlə müəyyən mütərəqqi bir missiyanı yerinə yetirən belə şəxsiyyətlərə dövlət və ictimaiyyət tərəfindən lazımi qayğı göstərilir. Bu baxımdan respublikanın aparıcı elm və təhsil mərkəzi olan Bakı Dövlət Universitetində də gözəl bir ənənə formalaşmışdır. Uzun illərdir ki, Bakı Dövlət Universitetində həm respublikanın ictimai-siyasi həyatında, həm də universitetdə elm və təhsilin inkişafında əhəmiyyətli xidmətləri olan görkəmli alimlərin, ziyalıların təntənəli yubileyləri keçirilir, onların həyat və yaradıcılığını əks etdirən məqalələr yazılır və kitablar nəşr edilir. Akademik Vasim Məmmədəliyevin də taleyi, həyat və yaradıcılığının böyük bir hissəsi Bakı Dövlət Universiteti ilə bağlıdır və onun anadan olmasının 70 illik yubileyinin universitetdə keçirilməsi bu qəbildən olan növbəti tədbirlərdən biridir.

*Akademik Vasim Məmmədəliyev çoxşaxəli elmi-pedaqoji və ictimai fəaliyyətə malik olan bir şəxsiyyətdir.* Azərbaycanda və dünyanın bir çox ölkələrində dilçilik elminin tanınmış nümayəndəsi kimi Vasim Məmmədəliyev uzun illər ərzində ərəb dilçiliyi və filologiyasının aktual problemlərinin tədqiqi ilə ardıcıl surətdə məşğul olub. Onun ərəb dilçiliyi və filologiyasının bir sıra aspektlərinə həsr olunmuş əsərləri elmi ictimaiyyətin rəğbətini qazanıb, mədəni irsimizin bir sıra abidələrinin, o cümlədən müqəddəs "Qurani-Kərim"in təfsiri və dilçilik xüsusiyyətləri ilə bağlı fikir və mülahizələri mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir və bu sahədə tədqiqatların aparılması üçün prioritet istiqamətlərin müəyyən edilməsi baxımından böyük əhəmiyyətə malikdir.

*Akademik Vasim Məmmədəliyev 1942-ci il avqustun 27-də Bakı şəhərində anadan olmuşdur.* 1949-1959-cu illərdə Bakıda 113 saylı orta məktəbdə təhsil almışdır. Orta məktəbi bitirdikdən sonrakı həyat və fəaliyyətinin əsas hissəsi Bakı Dövlət Universiteti ilə bağlıdır. 1959-cu ildə o vaxtkı Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinə daxil olmuş və 1964-cü ildə həmin fakültəni ərəb filologiyası ixtisası üzrə bitirmişdir. 1965-1968-ci illərdə Tbilisi Dövlət Universitetinin aspiranturasında təhsil almışdır. 26 yaşında akademik G.V.Tseritelinin rəhbərliyi ilə "Müasir ərəb -azərbaycan ədəbi dilində və İraq dialektində felin zaman formalarının müqayisəli-tipoloji təhlili" mövzusunda namizədlik dissertasiyası, 32 yaşında isə Tbilisi Dövlət Universitetində "Müasir ərəb ədəbi dilində felin zaman, şəxs və şəkil kateqoriyaları" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək, keçmiş SSRİ məkanında ərəbşünaslıq sahəsində ən gənc elmlər doktoru adını almışdır. 1981-1991-ci illərdə BDU-nun şərqşünaslıq fakültəsinin dekanı, 1991-1992-ci illərdə BDU-nun humanitar fakültələr üzrə prorektoru olmuşdur. 1991-ci ildən BDU-nun Şərqşünaslıq fakültəsində Ərəb filologiyası kafedrasının müdiri, 1993-cü ildən yeni yaradılmış İlahiyyat fakültəsinin dekanı vəzifələrində çalışır. 1978-ci ildən professordur. 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir, 2007-ci ildə isə həqiqi üzvü seçilmişdir.

**Bu gün təkcə Azərbaycanda deyil, bütün Yaxın Şərq ölkələrində və Avropada görkəmli şərqşünas və islamşünas alim kimi tanınan Vasim Məmmədəliyev dilçilik sahəsində dərin və hərtərəfli biliyə malik kamil bir mütəxəssisdir.** Onun dilçilik elminin yaranması və inkişafı, bu elmin ən qədimdən müasir dövrə qədər keçdiyi inkişaf yolu, dilçilik məktəbləri, nəzəri dilçiliyin aktual problemləri və bu kimi məsələlərə dair tədqiqatları elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir.

Artıq qeyd edildiyi kimi, akademik Vasim Məmmədəliyevin elmi və ictimai fəaliyyəti geniş və çoxsahəlidir. Dilçilik və filologiya sahəsində mütəxəssis olmadığıma görə onun elmi fəaliyyəti haqqında fikir yürütməyim obyektiv olmazdı. Lakin bununla bərabər özümdə cəsarət taparaq onun elmi fəaliyyəti barədə bir neçə söz deməyi lazım bilirəm. Akademik Vasim Məmmədəliyev tərəfindən aparılan tədqiqatlar nəticəsində ərəb dilçilik elminin dünya dilçilik elmində orijinal sistemə malik olması, onun nəzəri və metodoloji baxımdan Hind-Avropa dilçiliyindən fərqli cəhətləri müəyyən edilmiş, ərəb dilçiliyinin ilkin orta əsr dilçilik tarixində yeni söz olması göstərilmiş və ərəb dilçiliyinin Avropa dilçilik elminə təsiri ətraflı olaraq araşdırılmışdır. Müəyyən edilmişdir ki, ərəb ədəbi dilindən fərqli olaraq bəzi ərəb dialektləri tipoloji baxımdan Azərbaycan dili ilə daha yaxındır. Onun elmi yaradıcılığının böyük bir hissəsi müasir dünyasının ən nadir incilərindən hesab edilən və ərəb ədəbi dilinin ən böyük abidəsi olan "Qurani-Kərim"in dil və üslub xüsusiyyətlərinin öyrənilməsi ilə əlaqədardır. Vasim müəllimin universal biliklərə, ensiklopedik məlumatlara malik olması onun mərhum akademik Ziya Bünyadovla birgə müqəddəs "Qurani-Kərim"i Azərbaycan dilinə tərcümə edərək xalqın istifadəsinə verməsinə imkan yaratmışdır. Onun öz təbirincə desək, - "Allah kəlamı olan Quran elə bir ecazkar ilahi kitabdır ki, heç bir müfəssir onu tam doğunluğu ilə təfsir və heç bir mütərcim mükəmməl tərcümə edə bilməz. Çünki Allah təala Özünün haqq dini islamı və onun müqəddəs kitabı Quranı insanlara yalnız müəyyən bir dövr üçün deyil, qiyamət gününə qədər odun keçəcək bütün dövrlər üçün göndərmişdir".

Vasim müəllim klassik Şərq ədəbiyyatını, o cümlədən, klassik Azərbaycan, fars, ərəb ədəbiyyatını mükəmməl bilir, müasir ədəbi prosesləri daim izləyir. O, həm də klassik Azərbaycan poeziyasının nadir bilicilərindəndir, klassiklərimizi gözəl bilməklə yanaşı, onların iri həcmli əsərlərini də əzbərdən söyləmək qabiliyyətinə malikdir.

Vasim müəllim eyni zamanda Azərbaycan musiqisinin, xüsusilə də muğamların gözəl bilicisidir. Dəfələrlə muğam gecələrini aparmış, respublikamızın görkəmli xanəndə və müğənnilərinin yaradıcılıq görüşlərində mütəxəssis kimi çıxış etmiş, musiqi xadimlərini muğam incilərinə hörmət etməyə, onları düzgün ifa etməyə çağırmışdır. O, həm də klassik Avropa musiqisinə dərindən bələddir.

*Akademik Vasim Məmmədəliyev müstəqillik əldə etmiş Respublikamızın ehtiyac duyduğu gənc ilahiyyatçı mütəxəssislərin hazırlanmasında gərgin əmək sərf etmişdir.* O, 20-dən çox monoqrafiya, dərslik və kitabın, 600-dən çox elmi və elmi-kütləvi məqalənin müəllifidir. Əsərləri dünyanın 15-dən artıq ölkəsində nəşr edilmişdir, 40-dan çox dissertasiya işinə rəsmi opponentlik etmişdir. Şərqşünaslıq və ərəb dilçiliyi sahəsində 41 elmlər namizədi və 3 elmlər doktoru yetirmiş akademik bu gün Azərbaycan şərqşünaslarının lideri kimi dünyanın müxtəlif ölkələrində keçirilən toplantılara qatılır. Dəfələrlə Rusiya, Polşa, Misir, ABŞ, İndoneziya, İraq, Türkiyə, İran, Gürcüstan, Fransa və digər xarici ölkələrdə keçirilən konfrans və simpoziumlarda məruzə ilə çıxış etmişdir.

**Akademik Vasim Məmmədəliyevin elm və təhsil sahəsindəki əvəzsiz xidmətləri dövlət və beynəlxalq ictimaiyyət tərəfindən layiqincə qiymətləndirilmişdir.** Bu sahədəki səmərəli fəaliyyətinə görə o, ölkə başçısı tərəfindən 1992-ci ildə Azərbaycanın Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür, 2002-ci ildə "Şöhrət ordeni", 2009-cu ildə "Şərəf"ordeni, 2012-ci ildə Prezident təqaüdü ilə təltif edilmişdir. 2003-cü ildə Dağıstan Respublikasının Əməkdar elm xadimi adına layiq görülmüşdür. "Yusif Məmmədəliyev" medalı ilə təltif edilmişdir. Qafqaz Müsəlmanları İdarəsi nəzdində Elmi-Dini Şuranın sədri, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin üzvü, İraq Elmlər Akademiyasının, Suriya Quran Elmləri və Ərəb Filologiyası Akademiyasının, Misir Ərəb Dili Akademiyasının müxbir üzvü, İslam Əməkdaşlıq Təşkilatının Müsəlman Hüququ Akademiyasının akademiki və Azərbaycanın orada təmsilçisi, İranın Beynəlxalq Əhli-Beyt Assosiasiyası və Türkiyənin Elmi Araşdırmalar Vəqfinin üzvü, Azərbaycan - İraq Dostluq Cəmiyyətinin sədridir.

**Vasim müəllimin islam dininin, islam dəyərlərinin təbliğində və yayılmasında, Quran ayələrinin, dini ayinlərin və hədislərin düzgün yozulmasında, xalqın mənəvi cəhətdən zənginləşməsində və inkişafında böyük xidmətləri vardır.** Azərbaycan televiziyasında hər cümə axşamı efirə verilən "Haqqın dərgahı" verilişini xalqımız artıq 20 ildir ki, maraq və səbirsizliklə izləyir. Bu veriliş ümumxalq məhəbbəti qazanmış, İslam dini dəyərlərinin ölkəmizdə elmi şəkildə təbliğ olunması işində mühüm rol oynamış və oynamaqdadır.

**Yorulmaz və gərgin əməyi sayəsində Vasim müəllim öz dərin savadı və xoş niyyətli əməlləri ilə insanlığın ən ali zirvəsində, ən yüksək nöqtəsində dayanaraq, alimlik zənginlikdirsə, insanlıq isə qəlbin, daxili aləmin zənginliyidir anlayışını bir daha öz əməlləri ilə sübut etmişdir.** O, iki zənginliyi-istər beyin, zəka, istərsə də qəlb, iç dünya zənginliyini özündə cəm edən bir şəxsdir. Onu hələ gənc yaşlarımdan yaxından tanıdığım və onunla təmasda olduğum üçün deyə bilərəm ki, Vasim müəllim heç kəsi incitməmiş, heç kəsi özündən narazı salmamışdır. Kömək üçün ona müraciət edənlərin heç biri ümidsiz geri qayıtmır. Elm və biliyini heç kəsə əsirgəmir. Düzlüyü, doğruluğu, halallığı və xeyirxahlığı özünə amal, həyat yolu seçən bu insan deyərdim ki, nəcibliyin və insanlığın ən yüksək zirvəsində dayanır. Təbii ki, Allah hər bir insana yalnız və yalnız bir ömür payı bəxş edib və gərək bu ömrü elə yaşayasan ki, təmiz və mənalı olsun. Həyatın mənasını şan-şöhrətdə, mal-dövlətdə, varidat yığmaqda deyil, insanlara xidmətdə görür Vasim müəllim. Quranın əsas mövzularından biri yer üzünün əşrəfi olan insan haqqındadır. Buradakı ayələrə istinad etsək deyə bilərik ki, bəli, insan kainat ağacının meyvəsidir; fəqət bu meyvənin tam yetişməsi üçün şaxəli budaqlar və rəngarəng çiçəklər kifayət etməz. Ağacın yaşaması, bar verməsi üçün yer altındakı qaranlıqlara və dərinliklərə kök atması lazım olduğu kimi, insan da çətinliklərə və əzablara qatlaşmadan istədiklərinə nail ola bilməyən bir varlıqdır. Vasim müəllim də həyatın bütün çətinliklərinə sinə gərərək, maneələrdən keçərək insanlığın ən uca zirvəsinə kök salmışdır. O, heç vaxt özünü düşünməmiş, yalnız və yalnız həyatının mənasını ümumi məqsədə - insanlığa xidmətdə görmüşdür. Nəcib əməllər, xeyirxah işlər sahibi olan bu nurani, alicənab insan kimsənin haqqını tapdamadığı, heç kəsi özündən narazı salmadığı üçün hamıdan onun haqqında yalnız xoş sözlər eşitmişəm.

**Onun müəllim və alim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, səmimiliyi və qayğıkeşliyi, insanlara və onların problemlərinə göstərdiyi diqqət və qayğı, fəal həyat mövqeyi ona həmkarlarının, dostlarının və tələbələrinin dərin hörmətini qazandırmışdır.** O, yaşından asılı olmayaraq hər kəslə öz dilində danışmağı bacarır. Mən dəfələrlə onunla müxtəlif mövzularda söhbət etmişəm. O həmişə məntiqlə, əsaslandırılmış, eyni zamanda, səmimi danışır, adi sözlərlə insanın qəlbində həyat eşqi oyadır. Onunla danışmaq, ona qulaq asmaq çox maraqlıdır. O, çox az adama xas olan düşüncə tərzi ilə müsahibini heyran edir, ən adi sözlərlə insanların qəlbinə nüfuz edə bilir, onların sevimlisinə çevrilir. Öz ixtisasını qızğın məhəbbət və sədaqətlə sevir, bu sahədəki mövcud problemləri dərindən bilir və daima bu sahədə baş verən yenilikləri izləyir, bu yenilikləri həm öz fəaliyyətində tətbiq etməyə çalışır, həm də bu barədə öz həmkarlarına məlumat verir, rəhbərlik etdiyi kollektivdəki müəllim və elmi işçilərin bilik və bacarıqlarının daha da yüksəldilməsi üçün bütün imkanlardan istifadə edir. Yüksək peşəkarlığı, dostpərvərliyi, ünsiyyətdə səmimiliyi, istiqanlılığı və qayğıkeşliyi ilə seçilir. Yaşamaqdan, işləməkdən ilham alır, həyata və insanlara nikbin yanaşır, xeyirxahlıq və etimad abhavası yaradır.

*Hörmətli akademikimiz Vasim Məmmədəliyevi anadan olmasının 70 illik yubileyi münasibəti ilə səmimi qəlbdən təbrik edir, ona möhkəm cansağlığı, sağlam həyat və yeni yaradıcılıq uğurları arzulayırıq. İnanırıq ki, hələ uzun illər o, nəcib və xeyirxah əməllərini davam etdirərək insanları mənəvi saflığa çağıracaq, böyük səylə, qətiyyətlə çalışaraq Azərbaycanda dilçilik elminin ən son nailiyyətlərini dünya ictimaiyyətinə çatdırmaq sahəsində yüksək fəallıq və vətənpərvərlik nümayiş etdirəcəkdir.*

***Aydın Kazımzadə***

***Elm və İnnovasiyalar üzrə prorektor, fizika-riyaziyyat elmləri doktoru, professor***

# GÖYƏRƏN TOXUMLAR



***Fikrət Şiriyev,***
*Həmkarlar İttifaqı Komitəsinin sədri*

***Mən akademik Vasim Məmmədəliyevin elmi səviyyəsi, böyük alimliyi haqda yazmağa cəsarət etmirəm.*** Bu, hamının gördüyü və ən qatı müxaliflərin də etiraf etdiyi saf həqiqətdir. Digər tərəfdən, bu parlaq günəşin Azərbaycan şərqşünaslıq tarixinə doğduğu çətin 60-70-ci illəri bir daha təsəvvürümdə canlandırıram. Bu həmin dövr idi ki, Cuze, Marr, Bartold kimi əcnəbi dahilərdən sonra bizim Ələsgər Məmmədov, Rəhim Sultanov, Mübariz Əlizadə kimi nəhənglər, belə demək mümkünsə, yaranmışdı və bu nəhənglər əhatə dairəsində 4-cü şəxsi görmək istəmirdilər. Çətin ona görə deyirəm ki, Vasim müəllim bu güclü işıqların arasında yalnız günəş olaraq parlaya bilərdi və istedadı, zəhmətsevərliyi, intəhasız zəkası ilə bunu bacardı!

***Ancaq mən başqa çox parlaq bir keyfiyyət barədə yazmaq istəyirəm. Bu, insanlıqdır!*** Alimliyi qədər böyük olan bir keyfiyyət! Maraqlıdır ki, yüzlərlə ziyalının arasında işləməyimə baxmayaraq, həyatımın çətin anlarında Vasim müəllimi xatırlayıram: "Görəsən, o, bu vəziyyətdə nə edərdi?" Əvvəllər elə bilirdim, yalnız mən belə düşünürəm. Sonra bildim ki, universitetin bir çox müəllimləri akademik Vasim Məmmədəliyevi özlərinə ideal hesab edirlər. İnsanda nə qədər səbir, təmkin, diqqət, böyüklük olarmış?! Ən çox heyrət etdiyim isə şahidi olduğum mehribanlığı, sadəliyi və fenomenal yaddaşıdır. 2003-cü ildə rəhmətlik qayınatamın 75 illik yubileyini qeyd edirdik. Əslində yalnız ailə üzvlərini dəvət etmişdik. Hazırlıq mərhələsində təsadüfən Vasim müəllimlə rastlaşdım. Həmişəki kimi, mehribanlıq və səmimiyyətlə görüşüb nədən belə qayğılı göründüyümlə maraqlandı. Həssaslığı önündə heyrət edib yubileylə bağlı bir az narahat olduğumu dedim. Vaxtını, yerini soruşanda xəcalət çəkdim. "Yox, Vasim müəllim, Sizin minlərlə probleminiz var, özümüz olacağıq, narahat olmayın," - dedim. "Mən mütləq gələcəyəm," - deyərək yubileylə bağlı çap olunan kitabdan birini göndərməyi tapşırdı. Ayrılandan sonra daha çox həyəcanlandım. Dünyanın tanıdığı bu boyda alim, akademik, böyük şəxsiyyət bizim ailə tədbirində iştiraka qərar verdi. Necə deyərlər, dünyanı görə-görə gəlirik, biri bir balaca qabağa gedən kimi köhnə dostlar nədir, tanışlar nədir, köhnə yerişini bəyənmir, Vasim müəllim isə... Mən o vaxtlar heç bir vəzifədə deyildim, rektorun köməkçisi vəzifəsindən çıxmışdım, Həmkarların sədri də hələ seçilməmişdim. Bir növ dostların seyrələn dövrü idi. Belə bir vaxtda Vasim müəllim bizim tədbirə ürəkdən qatıldı, dərin məzmunlu çıxışı ilə hamını məftun etdi, üstəlik həvəskar şair olan qayınatamın kitabda çap olunan şeirlərindən bir neçəsini əzbər deyib bizi təəccübləndirdi. Axı kitab cəmi bir neçə saat əvvəl ona verilmişdi, bu qısa müddətdə şeirləri necə əzbərləyə bildi?

***Demə, milyonlardan fərqli olaraq, bu şəxsiyyətdə ürək və ağıl eyni böyüklükdədir, Allah öz sevimli bəndəsinə geniş ürəklə fenomenal ağılı səxavətlə verib.*** Verib ki, dünyada olanlar elə düşünməsinlər ki, bəşəriyyətin sonu çatıb, insanlar yalnız təmənnalı yaxşılıq etməyə qadirdirlər, qara qüvvələr qələbəyə daha yaxındırlar, "heç kəs heç kəsin kitabını oxumur" və s. Bu peyğəmbər xislətli adam dünyaya xeyirxahlıq toxumu səpə-səpə yaşamağa göndərilib ki, insanlar o göyərən yaxşılıqların barından dada-dada düşünsünlər ki, hələ yaşamağa dəyər bir az da...

***Hələ 30 il bundan sonra da o toxumların səpildiyinin şahidi olmaq arzusu ilə...***

# "Bunu oxumaq sənə çox lazımdır..."



Pərvanə İbrahimova
Mətbuat və İnformasiya şöbəsinin müdiri

"Qulaq hər gün bir söz eşitməsə, kar olar" - deyiblər. Ancaq nədənsə ayağının altında qaldığımız günlərin birində işə gələrkən metroda eşitdiyim bir söz qulaqlarımı kar elədi.

Metroda təsadüfən iki şıltaq qızın söhbətinə qulaq müsafiri oldum. Biri lap şıltaq idi, o birisi bir az. Biri dilini heç dinc qoymurdu, elə danışırdı. O birisi ancaq cavab verirdi. Qızlardan biri - lap şıltaq olanı qəflətən uca səslə və gülə-gülə dedi: "Qaçqın olduğunu bilirdim, amma bu qədər də yox". Qatar qəfil dayandı. Elə bil bu sözü qatar da eşitdi və udqundu. Dərindən nəfəs alıb, yenidən yola düzəldi. Qatar neyləsin? Qızın rəfiqəsi də başını aşağı dikdi. Utandı. O qız mənim gözümdə nədənsə yekə bir sual işarəsinə döndü. Bu sualın cavabı çox idi. Elə bil imtahan verirdim. Düşündüm ki, bu sözlər müharibə şəraitində olan bir ölkə vətəndaşının dilindən necə səslənə bilər? Buna qulaq müsafiri olmaq isə çox acı, çox ağır idi. Və mən o saat hiss elədim ki, bu imtahandan kəsiləcəyəm. Görəsən, nə baş vermişdi? O qızı özündən çıxaran nə idi? Anladığım qədəri ilə rəfiqəsi bu qızın ayağını tapdamışdı. O da buna dözməyib deyib ki, qaçqın olduğunu bilirdim, amma...

Bu adi bir sözdür. Ancaq bu sözün kökündə nə qədər böyük bir yara var. Və hər dəfə bu sözü eşidəndə içimdəki yaranın yeri səməni kimi təzədən göyərir. Bircə ayağına toxunulmuşdu. O da buna belə qarşıladı: "Qaçqın olduğunu bilirdim, amma..." Suala cavab tapa bilmirəm.

***O qız bununla nə demək istəyirdi? O bilmirdimi ki, dediyi sözün ağırlığını çəkəcək yaşda və çəkidə deyil?*** Çox balacadı. Bu xanım bir ayağının tapdanmasına dözə bilmir, bəs evindən-eşiyindən didərgin salınan, təkcə ayaqları deyil, mənlikləri, şəxsiyyətləri, qürurları, yurd-yuvası tapdanmış və bu ayrılığa 20 ildir dözən, dözdükləri hər gün isə ölən, doğma torpaqlarını görmədən dünyasını dəyişən insanlar neyləsin? Nədir onların günahı? Evsiz-eşiksiz qalmalarımı? Ata-baba məzarlarının tapdaq altında inildəməsimi? Budurmu onların günahı? Bəs o qız... Görəsən, o qız heç Qarabağın adını eşidibmi, bilirmi? Mən heç Lilpar bulağını, Soltan Heydər yoxuşunu, Qaranlıq dərəni, Minkəndi demirəm, bir milyondan çox insanın taleyi haqqında nəsə bilirmi?

Bilmir. Bilsə də, bu sözdən sonra aydın oldu ki, bilmir. Bilsəydi, o sözü dilinə gətirməz, onları lağa qoymazdı. Niyə bizim bu gənc qızımız bu qədər balacalaşıb? Özü də içi balacalaşıb. Hər il fevralın 26-da böyrü üstə uzanmış o balaca qızın şəkli yadıma düşür. O qız Xocalıda öldürüləndə 4 yaşı olardı. Ancaq indi onun 26 yaşı var. O böyüdü. Bəs sən niyə böyüməndin, "qaçqın olduğunu bilirdim, amma..." deyən qız və qızlar, oğlanlar! Yoxsa boyu uzandıqca içi balacalaşan adamlar bəyliyi, kişiliyi gözdən saldılarmı?

***Neçə gündür bir qızın özündən böyük danışdığı bu sözlərin təsirindən çıxa bilmirəm.*** Yadıma orta məktəbin sonuncu illəri düşür. Gəncə şəhəri ilk 3 şəhidini vermişdi. Biz isə itirdiyimiz igidlərimizi ağlayırdıq, "Abbasqulum, Ruzigarım, Bəxtiyarım" şeirini dillər əzbərinə çevirmişdik, "Boynubükük qərənfil" adlı səhnəciklə az qala məktəbimizin tavanlarını silkələmişdik, yeri-göyü ağlatmışdıq.

İndi nə baş verib? Nə dəyişib? Niyə bir çox gənclərimizdə vətənpərvərlik ruhu bu qədər aşağı səviyyədədir? Bir vaxtlar Əsgəran Əli və Bəxtiyarı şəhid verəndə, xocalılar qanına qəltan olunanda, qərbi azərbaycanlılar torpaqlarından uzaqlaşdırılıb yollarda erməni güllələrinə tuş gələndə biz deyildikmi birlik, həmrəylik nümayiş etdirən, cəbhə bölgələrindən hazırlanmış yazıları əl-əl gəzdirən, çıxartdığımız qəzetlərdə elan verib, onu cırmamağı, atmamağı, yaxında, qonşuda, xaricdə yaşayan soydaşlarımıza göndərməyi xahiş edən? Niyə hər şey belə tez unuduldu? ATƏT-in Minsk Qrupunun tez-tez dəyişən və müxtəlif xarakterli həmsədrləri kimi biz niyə ikibaşlı olduq, ikibaşlı düşündük? Yoxsa BMT-nin məlum 4 qətnaməsini hər gün xatırladan və dünya birliyinin buna hələ də dözdüyünün ifadə edən şüarlardan bezdik?

***Bəs cavan qız və oğlanlarımızın şüurunu necə dəyişək? Toplamı, tüfənglə mi?!!*** Niyə bizim bir çoxları itirilmiş torpaqlarımızın işğal tarixi bir yana, ərazilərin hansının Dağlıq, hansının ətraf Qarabağa aid olduğunu soruşanda dilləri topuq vurur?! Yoxsa hər gün işğal tariximizi sadalayaq, bəlkə qışqıraraq azərbaycanlıların Qərbi Azərbaycandan deportasiyasının üç mərhələdə - 1905-1920, 1948-1953 və 1988-1992-ci illərdə aparıldığını, bu proseslər zamanı ermənilərin yüzlərlə yaşayış məntəqəsini yerlə-yeksan etdiyini, uşaq və qadınların da daxil olduğu 140 min insanın vəhşicəsinə qətlə yetirildiyini, 750 mindən artıq azərbaycanlının didərgin salındığını, bu sayın sonuncu deportasiyada 200 mindən çox olduğunu elan edək. Baxın, qışqırıram. Heç olmasa qulaq asın.

Qaçqın ömrü yaşayan insan üçün hər şey çətindir. Onun dərdini, yaşantılarını, itirdiklərini dərk etmək üçün onun özü olmaq (Allah eləməsin) gərəkdir. Bəlkə bizim sevgimiz ölüb, istəyimiz tükənib? Ölməsin, nə olar ölməsin! Sevmək, ona bağlanmaq, onunla yaşamaq lazımdır... Millətinə, onun gücünə, ordusuna, dövlətinə güvənmək, qalib gəlmək üçün birləşməyə inanmaq və onu təlqin etmək gərəkdir...

***"Növbəti stansiya Elmlər Akademiyası..." Qızlardan ayrılmaq üzrəyəm. Birdən nəzərlərim qəhrəmanımın əlindəki hüquqla bağlı kitaba yönəlir. Qulağına pıçıldayıram: "Bunu oxumaq sənə çox lazımdır... Yaxşı oxu!!!"***

# JURNALİST GÜLÜŞÜ

*"Jurnalist gülüşü" başlığı altında dərc etdiyimiz bu yazılar ötən əsrin 80- ci illərində nəşriyyatlarımızın birində baş bermiş məzəli əhvalatlardan ibarətdir. Jurnalistika fakültəsinin müəllimi, Azərbaycan Jurnalistlər Birliyinin və Respublika Yazıçılar Birliyinin üzvü **Ayaz Musayev** həmin əhvalatları bədii dildə qələmə almışdır. **Onlardan bir-neçəsini yumor həvəskarı olan oxucularımıza təqdim edirik.***

## Oturası halım yoxdur

*Ötən əsrin 80-ci illərində kitab çap etdirmək eşqinə düşən bir müəllif çalışdığım "İşıq" nəşriyyatına təşrif gətirir. Redaksiya müdiri Musa Axundov onu gülərüzlə qarşılayıb deyir:*

*-Qağa, arxayın ol, salaçağam səni plana.*

*Bu sözlərdən xoşallanan müəllif sevincək halda qayıdır evinə. Sonradan o, hər dəfə köhnə tanış kimi nəşriyyata gələndə redaksiya müdirindən eyni sözləri eşidir:*

*-Qağa, arxayın ol, oturmusan planda.*

*Bir il keçir. Müəllif səbir edə bilməyib, yenə nəşriyyata gəlir. Və yenə də redaksiya müdiri ona həmin sözləri deyir:*

*-Qağa, dedim ki, arxayın ol. Planda möhkəm oturmusan.*

*Aradan bir neçə ay da keçir. Müəllif növbəti dəfə nəşriyyata gələndə Musa Axundov onu həmişəki kimi nəvazişlə qarşılayır və oturmaq üçün yer təklif edir. Elə bu zaman müəllif cibindən bir kağız parçası çıxarır və onu diqqətlə oxuyandan sonra deyir:*

*- Çox sağ olun, Musa müəllim, təşəkkür edirəm. Budur, düz iki il beş ay səkkiz gündür ki, mən planda oturmuşam. Daha oturası halım yoxdur.*

## Portfeldə əsər

*Əbdülqasımov soyadlı bir müəllif bir gün nəşriyyata gələrək redaksiyaya daxil olur.*

*- Sizə maraqlı bir əsər gətirmişəm, - deyir. - İstəyirəm ki, onu on beş günə çap edəsiniz.*

*Redaksiya müdiri Ruqiyyə xanım qarşıdakı adamın nəşriyyat prosesindən xəbərsiz olduğunu hiss edib ondan xilas olmaq üçün deyir:*

*-Jaxşı, əsərinizi təhvil verin. Portfelə salaram, sonrasına baxarıq.*

*Bunu eşidən müəllif sevincək halda əlindəki portfelə işarə edir:*

*- Əsərimi portfelə salmağa heç bir ehtiyac yoxdur. Ona görə ki mən özüm onu portfeldə gətirmişəm.*

## Balıq adı

*Şair Məmməd İsmayıl "İşıq" nəşriyyatının direktoru olanda qələm dostu Qaşəm İsabəylini işə götürür. Nəşriyyatın işçiləri direktorun kabinetində təzə redaksiya müdiri ilə tanış olurlar. Təqdimetmədə nəşriyyatın baş rəssamı Elman Haşımov da iştirak edirdi. Ana dilini əməlli bilmədiyinə görə Qaşəmin adı onda təəccüb və çaşqınlıq doğurur. Q.İsabəyli ona izah edir ki, "Qaşəm" ərəb adıdır, mənası da "zarafatçıl adam" deməkdir. Baş rəssam bundan lap çaşıb qalır:*

*-Kak, a xəşəm razve ne rıba?*

# Məmməd Səid Ordubadi – 140

***Filologiya fakültəsində görkəmli yazıçı Məmməd Səid Ordubadinin 140 illiyinə həsr olunmuş tədbir keçirilib.*** Tədbiri giriş sözü ilə açan dekan Məhərrəm Vəliyev filologiya fakültəsində görkəmli ədiblərin yubiley tədbirlərinin keçirilməsinin ənənə halını aldığını deyib. Sovet dönəmində və ondan sonrakı dövrdə Məmməd Səid Ordubadi yaradıcılığına yüksək dəyər verildiyini vurğulayan dekan yazıçının həyat və yaradıcılığı haqqında geniş məlumat verib və onun Azərbaycan ədəbiyyatındakı xidmətlərindən danışıb.

***Müasir Azərbaycan ədəbiyyatı kafedrasının müdiri, professor Tofiq Hüseynoğlu*** çıxışında bildirib ki, Ordubadi yaradıcılığından çox yazılsa da, təəssüf ki, hələ də onun sanballı elmi tərcümeyi-halı işlənib ortaya qoyulmayıb: "1942-ci ildə Ordubadinin 70 illik yubileyi keçirilmişdi. Həmin tədbirdən mətbuatda məqalələr dərc olunmuşdu və qeyd edilmişdi ki, Ordubadinin minlərlə əsəri var. Bu cür zəngin yaradıcılığa malik olan bir ədəbi şəxsiyyətin irsini daha dərindən öyrənməyə və daha ətraflı araşdırmağa böyük ehtiyac var".

M.S.Ordubadinin yaradıcılığa çox erkən başladığını vurğulayan professor bunun səbəbini həm ədibin istedadı, yazmaq həvəsinin böyüklüyü, həm də o dövrkü mühitlə ələqələndirib.

**Professor Abdulla Abbasov** Ordubadinin ədəbi qüdrətinin öz xalqının tarixini, mənəviyyatını məharətlə ifadə etməsində, bir-birindən dəyərli əsərlər yaratmasında olduğunu deyib: "Məmməd Səid Ordubadi Azərbaycan ədəbiyyatına maarifçi kimi gəlib, inqilabçı kimi yazıb-yaradıb. Onun istər nəsr, istərsə də şeir yaradıcılığı rəngarəng idi. Ordubadi yaradıcılığı Azərbaycan ədəbiyyatının qiymətli tərkib hissəsidir". M.S.Ordubadinin ilk dəfə azərbaycançılıq ideyasını romana gətirən bir yazıçı olduğunu vurğulayan professor onu böyük tarixi romanlar ustası və bu yöndə əsərlər yaradan müəlliflərin mənəvi ustadı kimi dəyərləndirib.

**Professor Tofiq Hacıyev M.S.Ordubadinin** bir insan kimi də maraqlı xarakterə malik olduğunu, güclü yumor hissinə görə fərqləndiyini bildirərək yazıçının həyatına aid maraqlı xatirələrdən danışıb.

Tədbirdə M.S.Ordubadinin həyatını əks etdirən sənədli film nümayiş etdirilib, tələbələrin ifasında yazıçının "Qılınc və qələm" romanı əsasında hazırlanmış səhnəcik təqdim olunub.

***K.Böyükçöl***

***BDU-nun astrofizika kafedrasının müdiri, fizika -riyaziyyat elmləri doktoru, əməkdar müəllim, professor Cəfər Quluzadənin "Əcaba dünyanın mən niyə gəldim?" adlı şeirlər kitabı işıq üzü görüb.***

# Dünyaya mən niyə gəldim

Dünya mənsiz belə xoş keçinərmiş,
Görəsən dünyaya mən niyə gəldim?
Yer də bu Günəşə səcdə edərmiş,
Əcəba, dünyaya mən niyə gəldim?

Fəsillər dəyişər, illər keçərmiş,
Ulduzlar səmaya işıq saçarmış,
Əzrayıl insanı vaxtsız biçərmiş,
Əcaba, dünyaya mən niyə gəldim?

İnsanlar sevərmiş ana torpağı,
Aqillər seçərmiş qaradan ağı,
Bərabər tutarmış sol ilə sağı,
Əcaba, dünyaya mən niyə gəldim?

Vətənə bir töhfə verə bilmədim,
Bir gözü yaşlının gözün silmədim,
Doyunca sevinib bircə gülmədim,
Əcaba, dünyaya mən niyə gəldim?

Günəş yandıranda vətəni, eli,
Əsəndə talenin amansız yeli,
Tufanlar yaratdı dağların seli,
Əcaba, dünyaya mən niyə gəldim?

Soyum da yaşayıb xoşbəxt olarmış,
Gözəl əməllərlə dünya dolarmış,
Ömrünü yaşayıb güllər solarmış,
Əcaba, dünyaya mən niyə gəldim?

Mənsiz də vətənin ucadır şanı,
Şöhrəti bəzərmiş bütün dünyanı,
Tarix unutmamış heç bircə anı,
Əcəba, dünyaya mən niyə gəldim?

Cəfər! Düçar oldun neçə qadaya,
Əngəl olammadın gələn bəlaya,
Şərəf gətirmədin elə, obaya,
Əcəba, dünyaya sən niyə gəldin?

***

# Ana

Analar müqəddəs sanki bir mələk,
Övladın istəyi, şirin canı tək.
Övlad üçün diləyir xoş arzu dilək,
Halıma yananım anadır-ANA

Bu bir həqiqətdir, deyil ki yalan,
İstər qoca olsun, istərsə cavan.
Övladın qayğısın çəkir hər zaman,
Qayğına qalanım anadır-ANA.

Ana balasına hər an gərəkdir,
Solmayan ətirli güldür-çiçəkdir.
Ana övladına arxa gərəkdi,
Köməyim həyanımə anadır-ANA!

***Ülvi Aydın***
***Filologiya fakültəsinin III kurs tələbsi***

# Prezident təqaüdçüləri

***Bu il Prezident təqaüdü veriləcək tələbələrdən 10 nəfəri BDU-da təhsil alır. Qəzetimiz vasitəsilə sizi onların hər biri ilə yaxından tanış edəcəyik.***

***Bu sayımızda Əliyeva Kəmalə və Xanlarzadə Xanlar ilə görüşdən hazırladığımız müsahibəni təqdim edirik:***



*Əliyeva Kəmalə 1995-ci ildə Bakı şəhərində doğulub. Xətai rayonu 287 №-li "Zəkalar" liseyini bitirib. **Kəmalə bu il 687 bal toplayaraq mexanika-riyaziyyat fakültəsinə daxil olub.** O, eyni zamanda topladığı yüksək bala görə Prezident təqaüdünə də layiq görülüb.*

*Xanlarzadə Xanlar 1994-cü ildə Cəlilabad rayonunda anadan olub. Cəlilabad rayonu Qarazəncir kənd tam orta məktəbini bitirib. **Xanlar bu il 695 balla hüquq fakültəsinə daxil olub.***

***- Niyə məhz bu ixtisası seçdiniz?***

Əliyeva Kəmalə:

- Uşaqlıq arzum olub.

Xanlarzadə Xanlar:

- Əvvəllər ikinci ixtisas qrupu üzrə hazırlaşırdım. Sonra nədənsə fikrimi dəyişib humanitar fənləri oxumağa başladım. Hüquqşünas olmaq arzum da bu vaxtdan yarandı.

***- Belə bir nəticə göstərəcəyinizə inanırdınızmı?***

Əliyeva Kəmalə:

- 650 balı keçəcəyimə inanırdım, amma nəticəmin bu qədər yüksək olacağına inanmırdım, düzü.

Xanlarzadə Xanlar:

- Məndə özünəinam hissi çox güclüdür. Təkcə qəbul imtahanında deyil, başqa işlərimdə də özümə arxayınam. İmtahanda da həmçinin.

**Əliyeva Kəmalə: "Qardaşıma qalib gəldim"**

***- İmtahana kiminlə getmişdiniz?***

Əliyeva Kəmalə:

- Ailəmizdən hamı getmişdi: bacım, qardaşım, atam ...

Xanlarzadə Xanlar:

- Məhəmməd adlı bir dostumla getdim. Narahat olmasınlar deyə, ailədən kiminsə getməyinə razı olmadım.

***- Sınaq imtahanlarında necə nəticə göstərirdiniz?***

Əliyeva Kəmalə:

- Sınaqlarda yüksək bal toplayırdım. Hətta qəbuldakından da yüksək. Ancaq sınaqlar məndə arxayınlıq yaratmadı. Sona qədər çox ciddi məşğul olurdum.

Xanlarzadə Xanlar:

- - Sınaqda ən yüksək nəticəm 677 oldu. Ancaq ayrı-ayrı kursların keçirdiyi sınaq imtahanlarında daha yüksək nəticələr göstərirdim.

**Xanlarzadə Xanlar: "Bircə sualda səhv elədim"**

***- İlk təqaüdünüzü necə xərcləməyi düşünürsünüz?***

Əliyeva Kəmalə:

- İlk təqaüdümlə evdəkilərin hamısına hədiyyə alacağam.

**Xanlarzadə Xanlar:**

- Təqaüdümü daha çox təhsilim üçün xərcləyəcəyəm. Çalışacağam ki, lazımlı kitablar alım.

***- Bədii ədəbiyyata marağınız necədir? Oxuyursunuzmu?***

**Əliyeva Kəmalə:**

- Bəli. Daha çox Süleyman Rəhimov və Əkrəm Əylislinin kitablarını oxuyuram.

**Xanlarzadə Xanlar:**

- Bədii ədəbiyyata marağım bir o qədər də yüksək səviyyədə deyil. Ancaq hərdən oxuyuram. Əsas elmi kitablar oxuyuram.

***- Qazandığınız bu uğura görə kimə minnətdarsınız?***

**Əliyeva Kəmalə:**

- İlk növbədə valideynlərimə, daha sonra məktəb və hazırlıq müəllimlərimə təşəkkür edirəm, onların əməyi üzərimdə çox böyükdür.

**Xanlarzadə Xanlar:**

- Bu uğuruma ən çox atam sevindi. Bəlkə də, ona görə ki ən çox atam əziyyət çəkmişdi. Təbii ki, mən də valideynlərimə və müəllimlərimə minnətdaram.

***- Sosial şəbəkələrdə varsınız?***

Əliyeva Kəmalə:

- Yox, heç vaxt maraq göstərməmişəm.

Xanlarzadə Xanlar:

- Nədənsə, sosial şəbəkələri əhəmiyyətsiz hesab edirəm. Vaxt itkisidir.

***- Dərslərinizi hansı rejimdə oxuyurdunuz?***

Əliyeva Kəmalə:

- Dərslərimə çox ciddi yanaşırdım. Məktəbdə tapşırılan dərsləri də oxuyurdum. Son iki ildə əlavə heç nə ilə məşğul olmamışam, ancaq dərslərimlə məşğul olmuşam.

Xanlarzadə Xanlar:

- Dərslərə ciddi yanaşırdım. Oxuduğumu yaxşı mənimsəyirdim. Hər gün maksimum 3 saat dərs oxuyurdum. Bircə tarix fənnindən əlavə hazırlığa getmişəm, digər fənləri özüm oxumuşam.

***- 700 bala iddianız var idi?***

Əliyeva Kəmalə:

- Ətrafımdakılar 700 bal toplayacağıma inanırdı, amma mən inanmırdım. Mənim əsas məqsədim imtahan nəticələrimlə qardaşımı ötmək idi. O, 650 bal toplamışdı. Ona qalib gəldim. Əvvəl 695 bal toplayacağımı zənn edirdim, sonra evdə yoxladım, gördüm ki, imtahan nəticəm 687 baldır. Bu zaman təxmin etdim ki, artıq təqaüdə layiqəm.

**Xanlarzadə Xanlar:**

- 700 bala iddiam var idi. Bircə sualda səhv elədim, o da ədəbiyyat fənnindən oldu. İsmayıl Şıxlının "Dəli Kür" əsərindən parça verilmişdi. Soruşmuşdular ki, bu parça kimin dilindəndir və nə vaxt deyilib. Bu sualın cavabını səhv yazmışdım.

***- Tələbəlik həyatı necədir? Maraqlı gəlirmi?***

Əliyeva Kəmalə:

- Universitetdə yaxşı oxuya bilməyəcəyimdən çox qorxuram. Ancaq mən bunu da bacaracağam. Nədənsə tələbəlik həyatı hələ ki, istədiyim kimi deyil. Bəlkə, gələcəkdə daha yaxşı olacaq, ancaq ilkin təəssuratım belədir.

Xanlarzadə Xanlar:

- Tələbəlik həyatına uyğunlaşmaq bir qədər çətindir. Ancaq müəllimlərim və qrup yoldaşlarım sayəsində bunun öhdəsindən gələcəyimə əminəm.

***✍ Kəramət Böyükçöl***

---

# "Dostlarım mənə əli deyirlər"

***BDU-da yüzlərlə xarici tələbə təhsil alır. Qəzetimiz vasitəsilə onların hər birini sizlərlə yaxından tanış edəcəyik. Bu sayımızda həmin tələbələrdən biri -jurnalistika fakültəsinin I kurs tələbəsi Hyungkyu Lini sizlərə yaxından tanıtmaq istədik. Lii eyni zamanda bizim tələbə yoldaşımızdır. Onunla söhbətlərimiz zamanı istər ölkəmizə, istərsə də təhsilimizə olan böyük marağı həmişə bizdə xoş təəssüratlar yaradır.***

***Düşünürük ki, bir xarici tələbənin ölkəmiz, mədəniyyətimiz, təhsilimiz haqqında təəssüratları sizin üçün də maraqlı olar.***



***- Li, istərdik ki, əvvəlcə özün və ailən haqqında qısa məlumat verəsən.***

- 1987-ci il yanvarın 23-də Cənubi Koreyada anadan olmuşam. Ailəmiz 7 nəfərdən ibarətdir. Məndən böyük qardaşım var. Onun 1 oğlu və 1 qızı var. Mən onları çox sevirəm.

***- Azərbaycan məktəbləri ilə Koreya məktəbləri arasında fərq varmı?***

Elə də çox deyil. Biz orada 8 yaşında 1-ci sinfə gedirik. Təhsil 12 illikdir. Mən 20 yaşımda orta məktəbi bitirib, vətənimdə 4 il jurnalistika təhsili almışam.

***- Nə üçün jurnalistikanı seçdin?***

- Uşaqlıqdan bu peşəni sevmişəm və bu sənətin arxasınca da gedirəm.

***- Təhsilini davam etdirmək üçün niyə məhz Azərbaycanı gəldin? Azərbaycan haqqında daha öncədən məlumatın var idimi?***

- Qafqaz ölkələri diqqətimi həmişə cəlb edib. Lakin Azərbaycan haqqında çox az məlumatım vardı. Bir dəfə Cənubi Koreyada olanda "Odlar yurdu Azərbaycan" adlı bir filmə baxdım. Bu filmdə Azərbaycanın təbii sərvətlərini, təbiətini, insanlarının xoş rəftarını gördüm. Həm də mənim dostum burada oxuyur, o da mənə bu ölkə haqqında xoş sözlər dedi. Məndə bu ölkəyə qarşı böyük sevgi yarandı və burada təhsil almaq qərarına gəldim.

***- Bəs nə üçün BDU-nu seçdin?***

- Düşünürəm ki, bu, Azərbaycanın ən yaxşı universitetidir.

***- Azərbaycan dilini öyrənmək və bu dildə təhsil almaq sənin üçün çətin deyil?***

- Dilinizi öyrənmək çox çətindir. Hələ də bəzi sözləri başa düşmürəm, amma hər gün yeni sözlər öyrənirəm. Bəzi sözləri bilmədiyim üçün dərslərimdə çətinlik çəksəm də, dərslərə maraqla hazırlaşıram.

***- Tələbə yoldaşlarınla münasibətin necədir? Sənə yad münasibət bəsləmirlər ki?***

- Yox, hər şey çox yaxşıdır. Onlar mənimlə xoş rəftar edirlər və biz dost olmuşuq. Hətta mənə Əli deyirlər və bu, mənim çox xoşuma gəlir.

***- Artıq 1 ildən çoxdur ki, burada yaşayırsan, ölkəmiz haqqında hansı təəssüratların yaranıb?***

- Onu deyə bilərəm ki, buradakı insanları çox bəyənirəm. Bakı çox gözəl şəhərdir. Mən Şəkidə və Qubanın Xınalıq kəndində də olmuşam. Oralar çox gözəldir. Adət-ənənələriniz xoşuma gəldi. İnsanlar istiqanlıdır. Orada bizi pitiyə qonaq etdilər. Bu yeməyi çox sevdim.

***- Azərbaycanda qeyd edilən bayramlardan hansını tanıyırsan? Onlardan hansını daha çox xoşlayırsan?***

- Qurban, Ramazan və Novruz bayramlarında iştirak etmişəm. Novruz daha çox xoşuma gəlir. Bu bayramda uşaqlar qapıya papaq atırdılar, mən də içinə müxtəlif şirniyyatlar qoyurdum.

***- İstərdik ki, sən də öz bayramlarınız haqqında bizə danışasan.***

- Bizdə ən məşhur bayramlardan biri Cu-sok bayramıdır. Bu bayram payızda qeyd edilir. Daha çox məhsul toplamaq üçün əcdadlara dua edirik.

***- Li, təhsilini bitirdikdən sonra vətəninə dönəcəksən, yoxsa burada qalıb işləyəcəksən?***

- Burada qalıb işləmək istəyirəm. Məncə, burada özümə daha yaxşı gələcək qura bilərəm. Qəzetdə işləmək istəyirəm, çünki yazmağı çox sevirəm.

***- Səncə, azərbaycanlılarla koreyalılar arasında oxşar cəhətlər hansılardır?***

- Qocalara hörmət etmək, onlarla nəvazişlə rəftar etmək hər iki ölkəyə xas olan cəhətlərdir.

***- Yaqin ki, azərbaycanlı şair və yazıçılardan tanıdıqların var?***

- Mən sizin şairlərdən N.Gəncəvini, C.Cabbarlını və S.Vurğunu tanıyıram. Hətta Səməd Vurğunun şeirindən bir bənd də bilirəm.

***- Son söz olaraq nə deyə bilərsən?***

- Arzu edirəm ki, tələbələr təhsilini bitirdikdən sonra özlərinə yaxşı iş qursunlar. Azərbaycan - Koreya münasibətləri daha da yaxşı inkişaf etsin...

***✍ Hazırladılar:***

***jurnalistika fakültəsinin I kurs tələbələri:***
***Maral Nəcəfli və Aysel Qasımova***

---

## ETİBARSIZDIR

Musayeva Aynurə Qurban qızına məxsus şəxsiyyət vəsiqəsi itdiyi üçün etiğarsz sayılır.

Geologiya fakültəsinin II kurs tələbəsi Qasımov Ramin Nəsir oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Fizika fakültəsinin III kurs tələbəsi Mirzəyev Aslan Mətləb oğluna məxsus tələbə vəsiqəsi və qiymət kitabçısı itdiyi üçün etibarsız sayılır.

SEP III kurs tələbəsi Əzimzadə Aydan Altay qızına məxsus qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Ekologiya və torpaqşünaslıq fakültəsinin III kurs tələbəsi Rüstəmov Elçin Ağamurad oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin III kurs tələbəsi Səlifli Orxan Elman oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Coğrafiya fakültəsinin IV kurs tələbəsi Daniloviç Natalya Qennadyevnaya məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Ekologiya və torpaqşünaslıq fakültəsinin III kurs tələbəsi İsgəndərov Xəlil İlham oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Fizika fakültəsinin IV kurs tələbəsi Məmmədov Malik Malik oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin II kurs tələbəsi Hüseynov Teymur Natiq oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin II kurs tələbəsi Nəbizadə Abbas Nəbi oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Ekologiya və torpaqşünaslıq fakültəsinin II kurs tələbəsi Nəsirzadə Elvin Vüqar oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Sosial elmlər və psixologiya fakültəsinin II kurs tələbəsi Mənsimli Azad Əlidursun oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Tətbiqi-riyaziyyat və kibernetika fakültəsinin III kurs tələbəsi Hüseynli Nicat Azər oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Biologiya fakültəsinin III kurs tələbəsi Qələndərli İranə Zülfüqar qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin II kurs tələbəsi Dadiyev Nicat Tahir oğluna məxsus qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Özünü fəth etməyi bacar!

# Bakı Universiteti

№ 11 (1434) 31 oktyabr 2012-ci il



## Tələbələrin nəzərinə!

*Xüsusi istedada, jurnalistlik qabiliyyətinə, yaradıcılıq bacarığına maliksinizsə və tanınmaq istəyirsinizsə "Bakı Universiteti" qəzetinə müraciət edin.*

# BDU beynəlxalq reytinq cədvəlində 51 pillə irəlilədi

Beynəlxalq Akademik Perspektivlər İnstitutu (URAP) 2012-2013-cü il təhsil ilində dünyanın ən yaxşı 2000 universitetinin siyahısını açıqlayıb. Cədvələ ABŞ-ın Harvard Universiteti başçılıq edir. Azərbaycanın isə yalnız bir ali məktəbi ən yaxşılar arasında yer alıb.

Ölkəmizin ən böyük təhsil ocağı olan Bakı Dövlət Universiteti siyahıda 1786-cı yerdədir. 2011-2012-ci ildə isə BDU 1837-ci sırada yer tutub.

Qeyd edək ki, Türkiyədən 77, İrandan 23, Gürcüstan və Ermənistandan isə bir universitet siyahıda yer alıb.

**Siyahının ilk 10-luğu:**

*1.Harvard Universiteti*
*2.Toronto Universiteti*
*3.Jon Hopkins Universiteti*
*4.Stanford Universiteti*
*5.Kaliforniya Berkli Universiteti*
*6.Miçiqan Universiteti*
*7.Oksford Universiteti*
*8.Vaşinqton Sietl Universiteti*
*9.Los-Anceles Universiteti*
*10.Tokio Universiteti*



## Yeni nəşr




*Fizika-riyaziyyat elmləri doktoru, professor* ***Karlen Xudaverdiyev*** *və fizika-riyaziyyat elmləri namizədi* ***Mələkə Mahmudovanın*** *müəllifliyi ilə* "Dördüncü tərtib yarım-xətti Bussinesk tənliyi üçün qarışıq məsələ. Müxtəlif tip həllərin varlığı və yeganəliyi" adlı kitabda fizikanın, mexanikanın, hidromexanikanın və riyazi fizikanın bir çox məsələlərinin həlli hiperbolik və psevdohiperbolik tənliklər üçün qarışıq məsələlərin öyrənilməsinə gətirilir. Son zamanlar ətraf mühitin mühafizəsi və öyrənilməsi problemləri və həmçinin okeanologiya və tətbiqi fizikanın tələbləri ilə əlaqədar olaraq qarışıq məsələlərin və psevdohiperbolik, psevdoparabolik və ümumiyyətlə, Sobolev tipli tənliklər üçün Koşi məsələsinin öyrənilməsinə olan maraq daha da artmışdır.

Bu monoqrafiya bir sinif dördüncü tərtib yarım-xətti psevdohiperbolik tənliklər üçün Rikye tipli sərhəd şərtli qarışıq məsələnin ümumiləşmiş, sanki hər yerdə və klassik həllərinin varlığı və yeganəliyi məsələlərinin öyrənilməsinə həsr olunmuşdur.

*Kitab riyaziyyatçılar, mexaniklər və fiziklər üçün nəzərdə tutulmuşdur. Bu kitabdan xüsusi törəməli qeyri-xətti diferensial tənliklər üçün sərhəd məsələlərinin tədqiqi ilə məşğul olan riyaziyyat fakültələrinin yuxarı kurs tələbələri, aspirantlar və elmi işçilər də istifadə edə bilərlər.*

# THİK növbəti tədbiri "Azercell Telecom"la reallaşdırdı

Bakı Dövlət Universiteti Tələbə Həmkarlar İttifaqı Komitəsi tələbələrin öz karyeralarını qurmaq, gələcəkdə əmək fəaliyyətinə başlamaq istərkən əmək bazarında layiqli iş yerlərini tutmaq, təhsil aldıqları müddətdə maddi ehtiyaclarının bir hissəsini ödəməyin mümkün istiqamətlərini müəyyənləşdirmək məqsədi ilə mütəmadi olaraq müxtəlif tədbirlər, seminarlar, dəyirmi masalar təşkil edir. Bu sırada növbəti tədbiri THİK "Azercell Telecom" ilə birgə reallaşdırdı. Budəfəki görüşdə əsas məqsəd "Azercell" şirkətinin təhsil alan gənclərlə bağlı həyata keçirdiyi sosial layihələr haqqında tələbələrə geniş informasiya vermək və tələbələri bu layihələrdən əldə edəcəkləri faydalar haqqında məlumatlandırmaqdan ibarət idi.

Görüşü giriş sözü ilə açan Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Daşqın Qənbərov təhsil alan gənclərin gələcək karyeralarının müəyyənləşdirilməsində bu tip tədbirlərin, tanıtımların əhəmiyyətini qeyd edərək tələbələri aktiv olmağa, elan olunan layihə və proqramlarda yaxından iştirak etməyə çağırdı. "Azercell" şirkətinin İnsan resursları departamentinin əməkdaşı Aynurə Priyeva isə "Azercell" şirkəti, onun həyata keçirdiyi sosial layihələr, xüsusilə də "Tələbə təqaüd proqramı", tələbələrin sözügedən şirkətdə iş təcrübəsi keçmək və s. haqqında çıxış etdi. Görüş tələbələr tərəfindən böyük maraqla izləndi və sonda tələbələrin suallari cavablandırıldı.



# 100 yaşlı Facebook istifadəçisi: "Əvvəl mənə gülürdülər"

100 yaşlı livanlı Yucin Bitar dünyada Facebook-dan istifadə edən ən qoca istifadəçidir. Livan qəzeti yazıb ki, qoca qadın müxtəlif ölkələrdə yaşayan qohumları ilə danışmaq üçün sosial mediadan istifadə edir. O, illərdir görmədiyi yaxınları ilə video vasitəsilə danışır. Bitarın sözlərinə görə, bu günün texnologiyası və interneti böyük bir hədiyyədir.

*"Kənddə məndən yaşlı heç kəs yoxdur. Məndən cavanlar çoxdur".*

100 yaşının olmasına baxamayaraq nənə internetdə işləməkdən yorulmur.



Yucin Bitar öz lüğətinə "Məni Twitter-də və Facebook-da izlə" sözlərini əlavə edib.

"Mən nəvələrimdən bunun nə olduğunu soruşdum.Onlar dedilər ki, bu, sənə bütün dünyadakı insanlarla əlaqə yaratmağına imkan verən internetdir. Dedim ki, mənə də bunu öyrədin-. Uşaqlar əvvəlcə mənə güldülər, ancaq sonra öyrətdilər" -deyə Yucin deyib.

"Əvvəllər biz ya telefonla danışır, ya da məktub göndərirdik. Mən onları yeddi ildir ki, görmürdüm. İndi isə evdə oturaraq öz qohumlarını internetlə görə bilirsən".

***Azadqadin.az***

## Redaktordan

# Hər evdə bir bayraq olsun!



**Anzulə Əmirova**

Qarşıdan Dövlət Bayrağı Günü gəlir. Çoxları sevinir. Bilmirəm, həmin günə dəyər verdiklərindənmi, ya istirahət günü olduğundanmı?..

Dünən qardaşımın çarpayısının baş ucunda bayrağımızı görəndə isə çox böyük sevinc və fəxr hissləri yaşadım. Sevincimi büruzə verəndə o, burada təəccüblü heç bir şey olmadığını söylədi. Dedi ki, mən xarici ölkələrdə keçirilən idman yarışlarında apardığım mübarizə nəticəsində bayrağımızı ucaldanda belə sevinirəm:

"Elə bil ki, dünyaları mənə verirlər, qəlbim çırpınır, ayaqlarım əsir, gözlərim yaşarır. Bayrağın altında dayandığım zaman, elə bil, yarış hələ təzə başlayır, həyəcanım ən pik nöqtədə olur. Necə deyim, ifadə edə bilmədiyim hisslər keçirirəm..." Ancaq mənim də sevincimin bir başqa izahı var: mən ona görə fəxr etmədim ki, məhz mənim qardaşım bayrağımızı sözdə yox, əməldə də sevdiyini sübut edir, onu otağının ən baş köşəsində saxlayır; mən ona görə sevindim ki, deməli, bayrağa dəyər verən azərbaycanlı gənclərimiz var...

***O bayrağı məhz o yerdə görməyə ehtiyacım vardı.*** Ailəmizin sonbeşiyi olan qardaşım, bəlkə də, bunu anlamazdı... Bu təsadüf son günlər məndə yaranan xoş olmayan təəssüratı qismən də olsa azaltmışdı. Ürəyimdə "Əgər bir azca səy göstərsək, bizim də gənclərimizin qəlbində bayraq sevgisi yarana bilər" düşüncəsi oyandı. İndi isə keçim əsas məsələyə.

Bir neçə gün bundan öncə rəfiqəmlə oğlumu dənizkənarı parka aparmışdıq. Orada ucalan bayrağı gördüyümüz zaman rəfiqəm 5 yaşlı oğluma anidən: "Bayraqdakı göy rəng hansı mənanı ifadə edir?" sualını verdi. Cavabında oğlum bayrağımızın rənglərini sadalamağa başladı, amma rənglərin hansı məna ifadə etdiyini dəqiqliklə deyə bilmədi. Onun suala cavab verə bilmədiyini görən rəfiqəm dərhal baxışlarını mənə yönəldəndə anladım ki, elə sualı da mənə yönəltdi. "Türkçülük" söylədim. Amma razılaşmadı. Mən isə: "İnanmırsansa, zəng et, kimdən istəyirsən, soruş," - dedim. Razılaşdı.

***Dosta zəng başladı...*** Amma ağlıma belə gəlməzdi ki zəng etdiyimiz 8 nəfərdən yalnız biri bayrağımızdakı rənglərin hansı mənaları ifadə etdiklərini tərəddüd etmədən doğru söyləyəcək. "Kaş ki uşağın yanında belə etməzdik," - deyə düşündüm. Haradan biləydim ki, zəng etdiklərimiz: "Qırmızı rəng şəhidlərin qanını ifa edir", "Göy rəng islam mənasını verir", "Göy türkçülük... yox, dayan, kitaba baxım, lap dəqiq cavab olsun", "Eh, sən də sual tapdın verməyə" və s. kimi zarafat qarışıq cavablar verəcəklər. Ən maraqlısı, eyni zamanda arzuolunmazı isə müraciət etdiyimiz dəyərli dostlarımızın əksəriyyətinin təhsil müəssisələrinin əməkdaşları olması idi...

***Artıq mənim cavabımın düz olması qəbul olunmuşdu. Nədənsə sevinə bilmirdim.*** Axı bizim kiçiklərdən gözlədiyimiz bayraq sevgisini onlar böyüklərdən öyrənməlidirlər. Görünən bu idi ki, bəzi böyüklər özləri də bayrağımıza dəyər vermirlər... Bizim atributlarımıza olan laqeydliyimiz birbaşa Vətənimizə, torpağımıza, xalqımızın tarixinə olan laqeydliyimizin göstəricisi deyilmi? Bu mənzərə bizim vətənpərvərlik məsələlərinə səthi yanaşmağımızdan irəli gəlmirmi? Bayraq, vətən sevgisi olmayan bir ölkənin sabahına nə dərəcədə inam ola bilər? Elə bunun nəticəsidir ki, bu gün gənclərimiz ölkə daxilində olan kiçik bir problemi yadlara, xaricilərə asanlıqla, tərəddüdsüz deməyə meyillidirlər. Onlarda milli təəssübkeşlik hissinin ilbəil azalmasının səbəbi də elə mənəvi dəyərlərimizə saymazyana münasibətdən qaynaqlanır. Sanki Mişelmi, Mayklmı, Con və b. onların vətənlərinin qayğısına qalacaq.Onların uğur qazanmaları üçün çalışacaq, bayraqlarının daim yüksəkdə dalğalanmasına baxıb "ƏHSƏN, Azərbaycan gənci!" deyəcək. 10 dəqiqə içərisində tanıdığı almana, ingilisə, fransıza "Ölkəmizdə filan-filan problemlər var" deyərək qarışqanı da fil etməklə kimlərəsə yarınmağa çalışan bəzi gənclərimizə VƏTƏN, BAYRAQ, MİLLƏT sözlərinin kəsb etdiyi mənanı dərindən anlatmaq lazımdır. Və bu zamanında, körpələrə bağça yaşlarından valideynləri, müəllimləri tərəfindən izah edilərsə, daha uğurlu olmazmı?

Bu gün gənclik elmli ola bilər. Lakin ürəklərində Vətən sevgisi, bayraq sevgisi, milli təəssübkeşlik olmadıqdan sonra nə anlamı var? O bilik kimə, nəyə yarar? Məncə, doğma vətəninin təəssübünü çəkməyən, onun dəyərlərini qəlbən sevməyən, ölkəsi haqqında mənfi rəy formalaşdıranlarla mübarizə aparmayan birinin "inkişaf" etməsi heç nəyə gərək deyil. Heç onun özünə də!

Qarşıdansa Dövlət Bayrağı Günü gəlir. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanın üçrəngli bayrağı Dövlət rəmzi olaraq Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1918-ci il 9 noyabr tarixli iclasında qəbul olunub. 1991-ci il fevralın 5-də Azərbaycan Ali Sovetinin qərarı ilə hazırkı üçrəngli və ay-ulduzlu bayraq müstəqil respublikamızın Dövlət bayrağı elan edilib. Prezident İlham Əliyevin 2009-cu il noyabrın 18-də imzaladığı sərəncamla 9 noyabr tarixi Dövlət Bayrağı Günü kimi qeyd olunur. "Türkçülük, islamçılıq və müasirlik" mənalarının əks olunduğu, 162 metr yüksəklikdə dalğalanan Azərbaycan bayrağı dünyanın ən uca bayrağıdır.

***Arzu edirəm ki, bu günün dəyərini bilək. Bu günlə bağlı maarifləndirici tədbirlər həyata keçirək. Həmin günü sadə bir istirahət günü kimi yox, uca bayrağımıza layiq şəkildə qeyd edək. Hər evdə bir bayraq olsun. Hər kəs bir-birinə bayraq hədiyyə etsin. Şəhərimizin küçələri bayrağımızla bəzədilsin. Yaşlılar, cavanlar, uşaqlar gedəcəkləri yerə Azərbaycan bayrağı əllərində getsinlər. Hər birimizə bu yüksəkliyi dərk etmək arzusu ilə Bayraq Gününüz mübarək!***

**Baş redaktor:** Anzulə ƏMİROVA

**Redaksiya heyəti:** Solmaz Babaşova, Aynur Qurbanqızı, Tamilla Müslümova, Salam Muxtarov, Kərəmət Böyükçöl

**Redaksiyanın ünvanı:** Bakı, akad. Zahid Xəlilov küç. 23, BDU-nun əsas binası, III mərtəbə
**Tel.:** 539-03-64, 539-04-78
e-mail:anzule@mail.ru

**Sifariş: 162**
**Tiraj: 2000**

VÖEN: 990000213
Lisenziya №-022708
Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Əlyazmalar geri qaytarılmır